RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 121 (9000) CÜMƏ, 10 iyun 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Prezident İlham Əliyev Əmək Məcəlləsində və Vergi Məcəlləsində dəyişiklik edib

→ 2

## Saatlı rayonunun Məmmədabad-Genişkənd avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Dörd min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Məmmədabad-Genişkənd avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 1,0 (bir) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 9 iyun 2022-ci il*

## Erməni vandallığı dünyada ifşa olunur

"...Mən azad edilmiş bu bölgələrdə olarkən, ermənilər tərəfindən törədilmiş vəhşiliyi görərkən bir daha əmin oluram ki, biz nəinki özümüz üçün, bölgəmiz üçün böyük iş görmüşük. Biz erməni faşizminin başını əzdik. Bizim torpaqlarımızı erməni faşizmi bu günə saldı". 23 dekabr 2020-ci ildə Prezident İlham Əliyev işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olarkən erməni vandalları tərəfindən yerləyeksan edilən yaşayış binalarımızı, dağıdılan maddi-mənəvi irsimizi görərək bu fikirləri səsləndirmişdi.

→ 5




# Dünyanın diqqəti yenidən Bakıdadır

## Bu gündən paytaxtımızda "Formula-1" yarışlarına start verilir

→ 7



## Azərbaycan Avrasiya üçün ticarət qapıları açır

→ 2

## Türkiyə Prezidenti: «Qardaş Azərbaycanla əməkdaşlıq içindəyik»




"Türkiyə tarixindən və mədəniyyətindən qaynaqlanan məsuliyyətini yerinə yetirir. Qarabağda və işğal altındakı digər Azərbaycan torpaqlarında 2020-ci ilin sonlarında yaşanan hadisələr zamanı qardaşlarımızın yanında yer aldıq. Erməni tərəfinin təxribatları nəticəsində başlayan 44 günlük bir mübarizənin sonunda Azərbaycanın Zəfəri ilə nəticələnən Qələbə bölgədə 30 ildir davam edən işğala son qoydu".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəsində keçirilən "Efes-2022" çoxmillətli hərbi təlimlərin İzmir bölgəsində təşkil olunan "Yüksəksəviyyəli müşahidəçi günü"nə aid sonuncu mərhələdə çıxışında ifadə edib.

Türkiyənin Azərbaycana "Bir millət, iki dövlət" anlayışı ilə dəstəyini davam etdirdiyini xatırladan dövlət başçısı deyib ki, Azərbaycan Ordusunun modernləşməsi, təhsil, mina axtarışı və zərərsizləşdirilməsi məsələlərində də qardaşlarımızla yaxın əməkdaşlıq içindəyik.



## Azərbaycanla Misir arasında sıx əməkdaşlıq formalaşıb

→ 3

## Ermənistanın Oxçuçay terroru davam edir

### Qafan və Qacaran kimi şəhərlərdən çaya axıdılan təmizlənməmiş məişət suları çirklənmə səviyyəsini daha da yüksəldib

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ötən il ərzində aparılan monitorinqlər zamanı Oxçuçaydan dəfələrlə götürülən su nümunələrində çirklənmənin yüksək səviyyədə olduğu təsdiqini tapıb. Belə ki, suda yüksək miqdarda ağır metal, xüsusən mis, molibden, manqan, dəmir, sink və xrom aşkar edilib. ETSN-in monitorinq hesabatlarına əsasən, çayda mis-molibden birləşməsinin miqdarı normadan iki, dəmir dörd və nikel yeddi dəfə yüksək olub, çayın rəngi çirklənmə səbəbindən vaxtaşırı dəyişib.

Oxçuçayın Zəngilanın Şayıflı və Cahangirbəyli kəndləri hissəsində aparılan monitorinq zamanı "Qırmızı Kitab"a daxil edilən 227 kiçik qızılxallı balıq və 330 şirbit balıqlarının kütləvi ölümünün müşahidə edilməsi də çaydakı çirklənmənin yüksək səviyyədə olduğundan xəbər verir.

→ 5

## Alternativ enerjiyə alternativ yoxdur

### Azərbaycan bu sahədə də zamanla ayaqlaşmağı bacarır

Alternativ enerji mənbələrindən geniş istifadə olunması bu gün dünyanı düşündürən vacib məsələlərdəndir. Artıq hamı yaxşı dərk edir ki, bəşəriyyətin gələcəyinin aqibəti təbii resurslardan səmərəli istifadə etməkdən və mövcud olan sərvətlərin qorunmasından asılıdır. Bu baxımdan müasir dünyada alternativ enerjiyə alternativ yoxdur.

Hazırda "yaşıl" və alternativ enerji mənbələrindən istifadədə dünyanın 5 ölkəsi irəlidədir. Maraqlısı odur ki, bu 5 ölkədən yalnız biri Avropadadır. Qoca qitə alternativ enerji resurslarından istifadədə fəal mövqe tutsa da, təəccüb doğuran odur ki, bərpaolunan və ya alternativ enerji mənbələrindən Asiyada daha çox yararlanırlar. Başqa sözlə desək, beşliyə düşən ölkədən üçü Asiyadadır. Bu siyahıda Avropa lideri olan Almaniya hamıdan axırda - beşinci yerdədir, baxmayaraq ki, hər il alternativ enerji mənbələrinin inşasına 9 milyard avroya yaxın xərcləyir.

→ 6

## Fransada tətillər yenidən başlandı

### Bu dəfə aviatorlar "Şarl de Qoll" hava limanının fəaliyyətini iflic ediblər

Fransanın "France Info" telekanalı "Paris Hava Limanları" (ADP) operator şirkətinə istinadən xəbər verir ki, iyunun 9-u səhər saatlarında Parisin "Şarl de Qoll" hava limanında demək olar ki, hər dördüncü reys təxirə salınıb. Səhər saat 07:00-dan saat 14:00-a kimi "Ruassi" - "Şarl de Qoll" habında uçuşların 25 faizi ləğv edilib. Uçuşlar inflyasiyanı kompensasiya etmək üçün əməkhaqlarına 300 avro artım tələb edən hava limanı işçilərinin tətili səbəbindən ləğv olunub. Tətil edənlər arasında uçuş-enmə zolaqlarının təhlükəsizliyinin təmin olunmasında iştirak edən yanğınsöndürənlər də var. Xatırladaq ki, ötən il iyulun ilk günlərində də "Ruassi" - "Şarl de Qoll" hava limanında tətillər olmuşdu.

Ümumilikdə son vaxtlar Fransada tətillər ənənəvi hal alıb. Məsələn, bu il iyunun 2-də energetika və qaz işçilərinin ümummilli tətili səbəbindən ölkənin 200 min sakini işıqsız qalıb, onlar da maaşların artırılmasını tələb ediblər.

→ 8



# Pilotlar yarışa, bolidlər trekə hazırdır

→ 7

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048, № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7 (I kitab), maddələr 1380, 1408, № 12 (I kitab), maddə 2532; 2019, № 1, maddə 35, № 4, maddə 570, № 5, maddələr 796, 804, № 7, maddə 1182, № 8, maddə 1380; 2020, № 1, maddə 1, № 5, maddə 522, № 7, maddə 832, № 11, maddələr 1322, 1332, 1335, № 12 (I kitab), maddə 1424; 2021, № 1, maddə 2, № 5, maddə 427, № 6 (I kitab), maddələr 539, 541, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 11, maddə 1203) aşağıdakı dəyişikliklər edilsin:

1. 49-cu maddə üzrə:

1.1. adına "minməsi" sözündən sonra "və qüvvədən düşməsi" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 5-ci hissə əlavə edilsin:

"5. Bu Məcəllənin 74-cü maddəsinin 1-1-ci hissəsində nəzərdə tutulan hallarda elektron informasiya sistemində qüvvədə olan əmək müqaviləsi bildirişi əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqanın qərarı ilə qüvvədən düşmüş hesab edilir.".

2. 74-cü maddə üzrə:

2.1. 1-ci hissənin e) bəndinə "vəfat etdikdə" sözlərindən sonra ", məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə xəbərsiz itkin düşmüş və ya ölmüş elan edildikdə" sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 1-1-ci və 1-2-ci hissələr əlavə edilsin:

"1-1. Aşağıdakı hallar fiziki şəxs olan işəgötürənlə bağlanmış əmək müqaviləsinə işçinin əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqana müraciəti əsasında xitam verilmiş hesab edilməsi üçün əsasdır:

1-1.1. fiziki şəxs olan işəgötürən vəfat etdikdə, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında xəbərsiz itkin düşmüş və ya ölmüş elan edildikdə;

1-1.2. fiziki şəxs olan işəgötürən barəsində məhkəmə tərəfindən həbs qətimkan tədbiri seçildikdə, yaxud o, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə azadlıqdan məhrum edildikdə;

1-1.3. fiziki şəxs olan işəgötürən məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli şəxs hesab edildikdə;

1-1.4. Azərbaycan Respublikasının Mülki Prosessual və Azərbaycan Respublikasının Cinayət Prosessual məcəllələrinə uyğun olaraq fiziki şəxs olan işəgötürənin axtarışı elan olunduqda;

1-1.5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq əcnəbi və vətəndaşlığı olmayan işəgötürən barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma tətbiq edildikdə.

1-2. Bu Məcəllənin 74-cü maddəsinin 1-1-ci hissəsinə uyğun olaraq, əmək müqaviləsinə xitam verilmiş hesab edilməsi əmək münasibətlərinin iştirakçılarını, habelə vəfat etmiş fiziki şəxs olan işəgötürənin vərəsələrini (miras payı həddində) əmək qanunvericiliyi ilə müəyyən edilmiş öhdəliklərin icrasından azad etmir.".

3. 87-ci maddəyə aşağıdakı məzmunda 8-ci hissə əlavə edilsin:

"8. Bu Məcəllənin 49-cu maddəsinin 5-ci hissəsinə uyğun olaraq, əmək müqaviləsi bildirişi qüvvədən düşmüş hesab edildikdən sonra əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqan tərəfindən işçinin müraciəti əsasında əmək kitabçasında müvafiq qeydlər aparılır.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 may 2022-ci il*

# İran İslam Respublikasının Prezidenti zati-aliləri cənab Seyid İbrahim Rəisiyə

Hörmətli cənab Prezident!

Məşhəd-Yəzd istiqamətində hərəkət edən sərnişin qatarının qəzaya uğraması nəticəsində insanların həlak olması və xəsarət alması barədə xəbər bizi son dərəcə kədərləndirdi.

Bu ağır faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

*Allah rəhmət eləsin!*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyun 2022-ci il*

# Z.Y.Səfərovanın "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqişünaslığının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Zemfira Yusif qızı Səfərova "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyun 2022-ci il*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, №11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, №11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, № 3, maddə 211, № 6 (I kitab), maddələr 541, 551, 555, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 10, maddələr 1090, 1092, № 12, maddələr 1305, 1337; 2022, № 1, maddələr 6, 7, 17) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 102.1.22-2-ci maddə əlavə edilsin:

"102.1.22-2. 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri.";

1.2. 123.1-ci maddədə "kredit təşkilatlarına və ya bank əməliyyatları aparan şəxslərə, maliyyə lizinqini həyata keçirən rezident şəxslərə və ya qeyri-rezident bankların, maliyyə lizinqini həyata keçirən qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə kreditlər (ssudalar), depozitlər (hesablar) üzrə ödənilən faizlər istisna olmaqla," sözləri "fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə" sözləri ilə, "maddəsində" sözü "və 102.1.22-2-ci maddələrində" sözləri ilə əvəz edilsin;

1.3. 123.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"123.3. İstiqraz üzrə ödənilən diskont və faiz gəlirləri üzrə ödəmə mənbəyində vergi istiqraz mülkiyyətçisinin həmin istiqraza malik olduğu günlərin sayına mütənasib surətdə hesablanır.".

**Maddə 2.** Bu Qanunun 1.2-ci və 1.3-cü maddələri 2022-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 may 2022-ci il*

# "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 529-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 231; 2000, № 3, maddə 159; 2008, № 7, maddə 611, № 8, maddə 719, № 10, maddə 896; 2009, № 2, maddə 71, № 12, maddələr 977, 987; 2011, № 7, maddə 633; 2012, № 6, maddə 545; 2014, № 7, maddə 791, № 11, maddə 1408, № 12, maddə 1570; 2015, № 1, maddə 20; 2016, № 6, maddə 1050; 2018, № 10, maddə 2007, № 12 (I kitab), maddə 2615; 2019, № 2, maddə 206, № 5, maddə 844; 2020, № 8, maddə 1037, № 11, maddə 1348) ikinci hissəsinin yeddinci abzasının "b" bəndinə "altıncı hissələrində," sözlərindən sonra "49-cu maddəsinin 5-ci hissəsində, 74-cü maddəsinin 1-1-ci hissəsinin birinci abzasında, 87-ci maddəsinin 8-ci hissəsində, " sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyun 2022-ci il*

# Azərbaycan Avrasiya üçün ticarət qapıları açır



## Şərqi Zəngəzur-Naxçıvan-İran və Zəngəzur dəhlizləri regionun yeni nəqliyyat arteriyası rolunu oynayacaq

Cənubi Qafqazın aparıcı ölkəsi kimi geosiyasi mövqeyindən maksimum yararlanaraq regionlararası nəqliyyat-kommunikasiya əlaqələrinin yaradılmasında fəal iştirak edən Azərbaycan daha iki mühüm layihə ilə bu proseslərə böyük töhfə verməyə hazırlaşır.

Bunlar - bu il martın 11-də İranla imzalanan Anlaşma Memorandumuna əsasən yaradılacaq Şərqi Zəngəzur-Naxçıvan-İran dəhlizi və Vətən müharibəsindəki zəfərdən sonra açılması qətiləşən tarixi Zəngəzur dəhlizidir. Azərbaycan hər iki dəhlizin tezliklə reallaşmasında olduqca maraqlıdır. Bu ticari körpülərin qurulması ilə Azərbaycanın etibarlı tranzit ölkəsi kimi çoxtərəfli beynəlxalq əməkdaşlığa dəyərli töhfələr verdiyi bir daha təsdiqini tapacaq.

Onu da vurğulayaq ki, hazırda Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olaraq həm də "Cənub-Qərb" və "Şimal-Qərb" layihələri üzərində də iş aparır.

Bütün bunlar isə bir daha təsdiq edir ki, İlham Əliyev Azərbaycanı nəinki Cənubi Qafqazda, ümumilikdə Avratlantika geosiyasi arealında öz sözü və mövqeyi olan dövlətə çevirib, qlobal layihələri ilə ölkəmizi etibarlı tərəfdaş kimi tanıdıb.

### Azərbaycan çoxtərəfli beynəlxalq əməkdaşlığa dəyərli töhfələr verir

Dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik zəmanəti adlandırırlar. Aparıcı dövlətlər ölkəmizin Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu bəyan edirlər. Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən bir çox nəhəng layihə regionun, Avrasiya məkanının enerji və nəqliyyat xəritəsini dəyişdirib, bölgənin və daha geniş coğrafiyanın enerji təhlükəsizliyinin təmin edilməsində, nəqliyyat-kommunikasiya, logistika infrastrukturunun inkişafına mühüm təsir göstərib.

Martın 11-də İranla imzalanan sənəd isə bu istiqamətdə həyata keçirilən layihələrin növbəti təntənəsi oldu. İki ölkənin diplomatik münasibətlərinin qurulmasının 30-cu ildönümündə belə bir tarixi hadisənin baş verməsi qürur doğurdu.

Xatırlatmaq yerinə düşər ki, ötən il Azərbaycan İranla daha bir avtomobil yolunun reallaşdırılması istiqamətində danışıqlar apararaq müsbət nəticə əldə edib. Söhbət Azərbaycan, İran və Gürcüstanın birgə yaratdığı yeni tranzit marşrutundan gedir. Bu xətt İran, Azərbaycan və Gürcüstandan keçməklə Fars körfəzini Qara dənizə birləşdirir. Hətta 2021-ci il dekabrın 22-də İran-Azərbaycan-Gürcüstan nəqliyyat dəhlizi ilə ilk sınaq ekspedisiyası da həyata keçirilib. Bu yeni nəqliyyat dəhlizi Cənub-Şərqi Asiya və Avropa bazarlarına çıxış yolları yaratmaq üçün tikilib. Təbii ki, İran-Azərbaycan-Gürcüstan dəhlizinin açılması üç qonşu ölkənin iqtisadi və ticarət əlaqələrinin artmasına səbəb olub.

### Şərqi Zəngəzur-Naxçıvan-İran dəhlizi yeni imkanlar açacaq

İmzalanan yeni sənədin məqsədi Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə İranın ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikası arasında yeni dəmir yolu, avtomobil yolu əlaqəsinin, eləcə də rabitə və enerji təminatı xətlərinin yaradılmasından ibarətdir.

Bu məqsədə nail olmaq üçün Araz çayı üzərində iki avtomobil (piyada keçidi ilə) və iki dəmir yolu olmaqla ümumilikdə dörd körpünün, eləcə də rabitə və enerji təminatı infrastrukturunun tikintisi nəzərdə tutulur. Həmin körpülər Ermənistanın dövlət sərhədinə 5 kilometr məsafədən keçəcək.

Tərəflər ərazilərində gündə 500 ədəd giriş və 500 ədəd çıxış olmaqla, ən azı 1000 ədəd yük nəqliyyatı parkını (ixrac, idxal və tranzit malları) qəbul edə biləcək dövlət sərhədində buraxılış məntəqəsinin tikilməsini öz öhdəsinə götürür. Şərqi Zəngəzur iqtisadi rayonunu İranla birləşdirən avtomobil körpüsünün, eləcə də rabitə və enerji xətlərinin layihə sənədlərinin hazırlanması, tikintisi və bu tikintiyə nəzarət işləri üzrə bütün xərclər Azərbaycan tərəfindən ödəniləcək. İranı Naxçıvan MR-in Ordubad rayonu ilə birləşdirən avtomobil körpüsünün layihə sənədlərinin hazırlanması, tikintisi və tikintiyə nəzarət işləri üzrə bütün xərcləri İran tərəfi həyata keçirir. Körpülərin layihələndirilməsi və tikintisi üçün tərəflərin müvafiq qurumlarının nümayəndələrindən ibarət birgə işçi qrup yaradılacaq. Avtomobil yolu körpülərinin tikintisi başa çatana qədər tərəflər öz dövlətinin ərazisində avtomobil yollarının zəruri tikinti, genişləndirmə və yenidənqurma işlərini təmin edir, eyni zamanda avtomobil körpüsünə giriş yollarının tikintisini həyata keçirirlər. Avtomobil yoluna paralel olaraq tikiləcək dəmir yolunun maliyyələşdirilməsinə və ödənilməsinə dair təkliflər 6 ay müddətinə hazırlanıb tərəflərin hökumətlərinə təqdim edilməlidir.

### Ermənistan yenə "ofsayd"a düşdü

İranla imzalanan sənədə əsasən yaradılacaq yeni dəhliz İkinci Qarabağ müharibəsinin məğlub ölkəsi Ermənistanı çətin duruma saldı. Çünki bu ölkə elə bilirdi ki, Azərbaycan ancaq Ermənistan ərazisindən keçməklə reallaşdırmaq istədiyi Zəngəzur dəhlizini açmaq üçün rəsmi İrəvana "xahiş-minnət" edəcək. Elə ona görə də üzərinə düşən öhdəliyin icrasından boyun qaçırırdı.

Amma İlham Əliyevin növbəti diplomatik gedişi Ermənistanı yenə "mat" vəziyyətinə saldı. Çünki Azərbaycan Ermənistanın sərhədindən cəmi 5 kilometr aralıdan - İran ərazisindən keçəcək yeni kommunikasiya bağlantısı yaratdı. Azərbaycan bununla öz planlarını reallaşdırdı, Ermənistan isə növbəti dəfə şansını itirərək mühüm geostrateji əhəmiyyətə malik olan layihədən kənarda qaldı. Yeni layihə böyük iqtisadi dividendlər gətirməklə yanaşı, həmçinin Naxçıvanın blokadadan çıxmasında, muxtar respublikanın Azərbaycanın əsas hissəsi ilə etibarlı və davamlı bağlantısının yaradılmasında mühüm rol oynayacaq. Bu gün elektrik enerjisi ixracatçısı olan Azərbaycan İran ərazisindən keçməklə Naxçıvan, Türkiyə və Avropaya elektrik enerjisi ixrac etmək imkanı da qazanıb.

### Zəngəzur dəhlizi - həm dəmir yolunun, həm avtomobil yolunun Mehridən, Zəngəzurdan keçməsi müəyyən olunub

Bununla belə, Azərbaycan Zəngəzur dəhlizinin də açılması qərarında qətidir. Bunu İlham Əliyev bütün çıxışlarında qətiyyətlə vurğulayır. Bu barədə Prezidentin ən son çıxışları "Bakı Enerji Həftəsi" çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılışı və Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasiminə təsadüf edir. İlham Əliyev bildirdi ki, Azərbaycan Zəngəzur dəhlizinin fəaliyyətinə start vermək istəyir. Bu da yalnız yüklər üçün deyil, elektrik enerjisi üçün mühüm ixrac marşrutu ola bilər. Artıq işlərə başlanılıb və bu istiqamətdə investisiya ilə bağlı praktiki addımlar atılır.

Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində isə Prezident dedi ki, Zəngəzur dəhlizinin açılması çox vacib məsələdir. Ermənistan hər zaman buna da maneçilik törətməyə çalışırdı. Amma indi vəziyyət dəyişib. Artıq Ermənistan da dəhlizin açılmasında maraqlıdır: "Brüssel görüşünün rəsmi açıqlamasına baxın, artıq həm dəmir yolu, həm avtomobil yolunun Mehridən, Zəngəzurdan keçməsi müəyyən olunub. Yəni, biz buna da nail oluruq və mən demişdim ki, nail olacağıq. Yəni, biz gündəliyi diktə edirik. Nəyin hesabına? Əlbəttə ki, müharibənin nəticələrinin hesabına. Çünki biz qalib dövlətik, Ermənistan məğlub edilmiş dövlətdir. Bu reallığı hər kəs qəbul etməlidir və edir. Əlbəttə ki, bu amil Azərbaycan-Ermənistan təmasları əsnasında ön plandadır".

Bu dəhliz istiqamətində iki layihə reallaşır - Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xətti və Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu.

İlham Əliyev Zəngilana səfəri çərçivəsində hər iki layihənin icra prosesi ilə də maraqlandı və bəlli oldu ki, işlər çox sürətlə reallaşır. Səfər çərçivəsində dəmir yolu xəttinin Cəbrayıl rayonu ərazisində Soltanlı stansiyasının təməlini qoyan Prezident xeyir-duasını verdi.

Əlavə edək ki, təkxətli dəmir yolunun uzunluğu 110,4 kilometrdir. Layihəyə əsasən yol boyunca 9 stansiyanın (Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd), 3 tunelin, 41 körpünün, 7 yolötürücünün, 300-ə yaxın süni mühəndis qurğusunun, rabitə və işarəvermə sisteminin, elektrik təsərrüfatının tikintisi planlaşdırılır. Yol boyunca 85 kilometr ərazi minalardan təmizlənib və proses davam edir. Dəmir yolu xəttinin yan yollarla birlikdə 60 kilometrlik hissəsi tamamlanıb. Bu məsafədə yük qatarları hərəkət edir.

Horadiz-Ağbənd dəmir yolu xəttinin təməli 2021-ci il fevralın 14-də İlham Əliyev tərəfindən qoyulub. Layihənin 2023-cü ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur. Prezidentin sərəncamları ilə yolun inşasına 312 milyon 700 min manat vəsait ayrılıb.

Prezident həmin gün həmçinin Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi ilə də tanış olub. Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan və ümumi uzunluğu 123,6 kilometr olan bu yolun tikintisi sürətlə davam etdirilir. Başlanğıcını Füzuli rayonunun Əhmədbəyli kəndindən götürən bu yol birinci texniki dərəcəyə uyğun inşa edilir. Yolun ilk 77 kilometrlik hissəsi altı, qalan 46,6 kilometrlik hissəsi isə dörd hərəkət zolaqlı olacaq. Yol boyunca üç avtomobil tuneli inşa edilir. Tunellərdən birində qazma işləri artıq yekunlaşıb, hazırda beton işləri icra olunur. Digər iki tuneldə isə qazma işləri davam etdirilir. Həmçinin bu yolun üzərində 15 avtomobil körpüsü, 5 yolötürücü və 54 yeraltı keçidin inşası nəzərdə tutulub. Hazırda 14 körpü, 3 yolötürücü və 38 yeraltı keçidin tikintisi aparılır. Yolun ilk 110 kilometrlik hissəsində torpaq işləri icra edilir.

Yolun genişləndirilərək profilə salınması, birinci texniki dərəcəyə uyğun yeni torpaq yatağının inşası və paralel olaraq asfalt örtüyünün salınması həyata keçirilir. Tikinti işlərinin 2024-cü ildə başa çatdırılması nəzərdə tutulur.

Bu yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir.

Göründüyü kimi, Azərbaycan regionda sabitləşdirici aktor kimi fəaliyyət göstərməklə bölgədə və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir. Buna görə də ölkəmiz hazırda regional güc mərkəzi kimi sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Azərbaycan konstruktiv, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, regional və qlobal miqyasda sabitliyə xidmət edən siyasi xətt yürüdür. Məhz bu səbəbdən də dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik zəmanəti adlandırırlar.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanla Misir arasında sıx əməkdaşlıq formalaşıb



İyunun 9-da Milli Məclisin Sədri Sahibə Qafarova Misir Ərəb Respublikasının ölkəmizdəki səfiri Hişam Mohamed Nağı Abdel Həmidlə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfiri salamlayan Sahibə Qafarova diplomata yeni vəzifəsində uğurlar arzulayıb və onun Azərbaycanda çalışdığı müddətdə iki ölkə arasında əlaqələrin daha da inkişaf edəcəyinə inamını ifadə edib.

Spiker Azərbaycanla Misirin dost ölkələr olduğunu və dövlətlərarası münasibətlərimizin hazırkı səviyyəsindən məmnunluğunu bildirib. Sahibə Qafarova diqqətə çatdırıb ki, bu il Azərbaycanla Misir arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik və ötən illər ərzində ölkələrimiz arasında bir çox sahələrdə sıx əməkdaşlıq formalaşıb.

Milli Məclisin Sədri bildirib ki, ölkələrimiz BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində sıx əməkdaşlıq edirlər. Söhbət zamanı iki ölkə arasında iqtisadiyyat, mədəniyyət, təhsil, turizm sahələrində əlaqələrin inkişafı və digər mövzular da danışılıb.

Spiker qeyd edib ki, parlamentlərarası münasibətlər ölkələr arasında ikitərəfli və çoxtərəfli əlaqələrin mühüm tərkib hissələrindən biridir. Bu baxımdan parlament dostluq qruplarının fəaliyyəti təqdirəlayiqdir. Ölkələrimizin qanunverici orqanları arasında münasibətlərin daha da möhkəmləndirilməsi üçün yaxşı imkanlar var.

Milli Məclisin Sədri qarşılıqlı təmasların, səfərlərin xalqlarımızın daha da yaxınlaşması baxımından əhəmiyyətini vurğulayıb, Azərbaycan tərəfinin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti barədə məlumat verib.

Görüşdə 44 günlük Vətən müharibəsində Azərbaycanın möhtəşəm Qələbəsindən danışan Sahibə Qafarova bildirib ki, bu qələbə regionda yeni reallıqlar yaradıb. Azərbaycan davamlı sülhün, sabitliyin, münasibətlərin normallaşdırılmasının tərəfdarıdır və bunun üçün Ermənistana bir sıra təkliflər irəli sürüb. İnanırıq ki, tezliklə iki ölkə arasında sülh sazişi imzalanacaq və bu, bütün region ölkələrinin inkişafına öz töhfəsini verəcək.

Misir Ərəb Respublikasının ölkəmizdəki səfiri Hişam Mohamed Nağı Abdel Həmid təbrikə görə təşəkkürünü bildirib və iki ölkə arasındakı münasibətlərin bundan sonra da inkişafı üçün səylə çalışacağını diqqətə çatdırıb. O, Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyinə və ölkəmizin təşəbbüsü ilə bu qurumun Parlament Şəbəkəsinin yaradılmasına görə təbriklərini çatdırıb.

Görüşdə səfir artıq Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər etdiyini və həqiqətləri öz gözləri ilə gördüyünü diqqətə çatdırıb. Bildirib ki, Misir şirkətləri də Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə investisiya qoymaq əzmindədirlər.

Söhbət zamanı tərəfləri maraqlandıran digər mövzularda da fikir mübadiləsi aparılıb.

***R.CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan Çexiya üçün strateji tərəfdaş ölkədir



İyunun 9-da Milli Məclisin Sədri Sahibə Qafarova Çexiya Respublikasının ölkəmizdə fəaliyyət müddəti başa çatan səfiri Milan Ekert ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumaia görə, səfiri salamlayan Sahibə Qafarova onun ölkəmizdə çalışdığı müddətdə Azərbaycan və Çexiya arasındakı münasibətlərin inkişafı sahəsində gördüyü işləri müsbət qiymətləndirib, səfirə bundan sonrakı diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Ölkəmizin Çexiya ilə münasibətlərin inkişafında maraqlı olduğunu deyən spiker bildirib ki, gələn il Azərbaycanla Çexiya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi tamam olur. Bu illər ərzində ölkələrimiz arasında əməkdaşlığa dair bir sıra sənədlər imzalanıb. Onlardan ən önəmlisi isə, "Azərbaycan Respublikası ilə Çexiya Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə"dir.

Spiker iki ölkə arasındakı münasibətlərin inkişafında yüksəksəviyyəli qarşılıqlı səfərlərin böyük rolunu qeyd edərək bu səfərlər zamanı imzalanmış sənədlərin əlaqələrimizin hüquqi bazasını formalaşdırdığını diqqətə çatdırıb.

Söhbət zamanı Milli Məclisin Sədri ölkələr arasında əlaqələrin inkişafında parlamentlərarası münasibətlərin önəmindən danışıb. Bildirib ki, hər iki ölkənin parlamentində dostluq qruplarının fəaliyyət göstərməsi xalqlarımızın və dövlətlərimizin mənafeyinə xidmət edir.

Görüşdə 44 günlük Vətən müharibəsindən və regionda yaranmış yeni reallıqlardan danışan Sahibə Qafarova Azərbaycanın davamlı sülh və sabitliyin tərəfdarı olduğunu diqqətə çatdırıb. Spiker tezliklə iki ölkə arasında sülh sazişi imzalanacağına inamını ifadə edib.

Çexiya Respublikasının ölkəmizdəki səfiri Milan Ekert ölkəsinin Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycan Çexiya üçün strateji tərəfdaş ölkədir. Bu strateji tərəfdaşlıq özünü xüsusilə enerji sahəsində göstərir.

Söhbət zamanı qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinin hər iki tərəfə fayda verməsindən danışan səfir Azərbaycanda işlədiyi müddətdə parlamentlərarası, mədəniyyət, təhsil sahələrində əlaqələrin güclənməsinə töhfə verməyə çalışdığını deyib. O, Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər etdiyini, orada gedən tikinti-quruculuq işlərini şəxsən gördüyünü diqqətə çatdırıb. Səfir Xudafərin körpüsü ilə tanışlığın onda böyük təəssürat yaratdığını qeyd edib. O, Çexiya şirkətlərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpası işlərində iştirak etməkdə maraqlı olduqlarını bildirib. Çexiyanın yaxın vaxtlarda Avropa İttifaqına sədrlik edəcəyini bildirən səfir, ölkəsinin Avropa İttifaqı-Azərbaycan əlaqələrinin inkişafını dəstəkləyəcəyini və bu işə töhfə verməyə hazır olduğunu vurğulayıb.

Söhbət zamanı parlamentlərarası əlaqələrin inkişaf etdirilməsi sahəsində yeni əməkdaşlıq imkanlarına da nəzər salınıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisdə diplomatiyada parlamentin rolu müzakirə olunub

İyunun 9-da Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və komitənin üzvü Asim Mollazadə bir qrup əcnəbi diplomatla görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, "Diplomatiyada parlamentin rolu" mövzusuna həsr olunan görüş ADA Universiteti və Xarici İşlər Nazirliyinin Beynəlxalq İnkişafa Yardım Agentliyi ilə əməkdaşlıq çərçivəsində Milli Məclisdə keçirilib.

Tədbiri açan Səməd Seyidov qonaqları salamlayaraq Azərbaycan parlamentinin strukturu, fəaliyyəti barədə məlumat verib. O, siyasi partiyaların və qadınların parlamentdə təmsilçiliyindən, parlamentə seçkilərin keçirilməsi qaydalarından danışıb, Milli Məclisin beynəlxalq təşkilatlarda iştirakından, parlamentdə fəaliyyət göstərən dostluq qruplarından bəhs edib.

O, həmçinin 44 günlük Vətən müharibəsində Azərbaycanın öz torpaqlarını Ermənistanın 30 illik işğalından azad etməsi, işğalın acı nəticələri və onların aradan qaldırılması üçün aparılan bərpa və quruculuq layihələri, regionda sülhün və iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində görülən işlər barədə qonaqlara ətraflı məlumat verib.

Deputat Asim Mollazadə isə qonaqlara Azərbaycanda parlamentin təşəkkül tarixindən, Şərqdə ilk parlamentin, ilk demokratik, hüquqi və dünyəvi dövlətin məhz Azərbaycanda elan edilməsindən söz açıb. O bildirib ki, ölkəmizdə nəinki müsəlman aləmində ilk dəfə olaraq, həm də bir sıra Qərb ölkələrindən əvvəl qadınlara seçmək və seçilmək hüququ verilib. Milli Məclisin deputatı əcnəbi diplomatlara Azərbaycanın tarixindən, zəngin dövlətçilik təcrübəsindən danışıb, tarixən formalaşmış dəyərlər sistemindən, çoxmədəniyyətlilik və tolerantlıq ənənələrindən bəhs edib.

Tədbirdə Səməd Seyidov və Asim Mollazadə Azərbaycanın konstitusion quruluşu, seçki hüququ, diplomatiyada parlamentlərin rolu və parlament diplomatiyasının imkanları kimi diplomatları maraqlandıran məsələlərlə bağlı səsləndirdikləri sualları cavablandırıblar.

***"Azərbaycan"***

# Azərbaycan ilə Pakistan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd edilib

İyunun 9-da Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində (XİN) Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə tədbir və sərgi keçirilib.

Nazirliyin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tədbirdə Azərbaycan XİN-in rəhbər heyəti, Pakistanın Azərbaycandakı səfirliyinin rəhbərliyi, əməkdaşları, habelə ölkəmizdə səfərdə olan Pakistan Milli Müdafiə Universitetinin nümayəndə heyəti iştirak edib.

Tədbir hər iki ölkənin Dövlət himnlərinin səslənməsi ilə başlayıb.

Çıxış edən xarici işlər nazirinin müavini Elnur Məmmədov Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etdikdən sonra onu tanıyan ilk dövlətlərdən birinin Pakistan olduğunu qeyd edib. İki ölkə arasında müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, ticarət, hərbi və digər sahələrdə inkişaf edən əlaqələrin mövcudluğunu qeyd edən nazir müavini ölkələrimiz arasında strateji tərəfdaşlıq xarakteri daşıyan münasibətləri məmnunluqla vurğulayıb. Nazir müavini həm keçmiş Ermənistan-Azərbaycan münaqişəsi dövründə, həm 44 günlük Vətən müharibəsi, həm də postmünaqişə dövründə Pakistanın Azərbaycana siyasi dəstək göstərdiyini minnətdarlıqla vurğulayıb. İki dost və qardaş ölkə arasında əlaqələrin gələcəkdə daha da inkişaf edəcəyinə dair inam ifadə edilib.







Sonra Pakistanın Azərbaycandakı səfiri Bilal Haye çıxış edərək Azərbaycan və Pakistan arasında münasibətlərin ümumi tarixi, dini və mədəni köklərə malik olduğunu bildirib. Səfir Pakistanın hər zaman Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq aləmdə tanınmış sərhədlərinin pozulmamasına tam dəstək göstərdiyini vurğulayıb. Ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə səmərəli əməkdaşlığın mövcud olduğunu qeyd edən səfir Bilal Haye bundan sonra da Azərbaycan və Pakistan arasında müxtəlif sahələrdə münasibətlərin daha da inkişaf etməsinə dair inamını bildirib və iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə öz səmimi təbriklərini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirin sonunda iştirakçılar Azərbaycan və Pakistan arasında diplomatik münasibətlərin 30 illiyinə həsr edilmiş sərgi ilə tanış olublar.

# TÜRKPA-nın Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyası model qanun layihələri hazırlayacaq

İyunun 9-da Türkdilli Ölkələrin Parlament Assambleyasının Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının videokonfrans formatında 9-cu iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstanın TÜRKPA-da təmsil olunan nümayəndə heyətlərinin üzvləri iştirak ediblər. Azərbaycan tərəfindən Milli Məclisin deputatları Cavanşir Feyziyev və Məlahət İbrahimqızı qatılıblar.

Komissiyanın sədri, Türkiyə Böyük Millət Məclisinin deputatı Erol Kayanın sədrliyi ilə keçən iclas "Xarici siyasət əməkdaşlığında parlamentlərin rolu" mövzusuna həsr olunub. Əvvəlcə toplantıda qeyd olunan mövzuya dair hesabat məruzəsinin layihəsi dinlənilib. Məruzəni komissiyanın sədr müavini Sauıtbek Abdraxmanov (Qazaxıstan) təqdim edib.

Komissiya üzvləri hesabat məruzəsini və tövsiyə qərarını TÜRKPA-nın növbəti plenar iclasında baxılması üçün təsdiq ediblər.

Sonra iclas iştirakçılarına 2023-2028-ci illər üçün komissiyanın növbəti iclaslarının mövzuları və müzakirə olunacaq model qanunlar haqqında məlumat verilib. Bildirilib ki, növbəti illər ərzində komissiyada TÜRKPA-nın 15-ci ildönümü: Üzv dövlətlər arasında əməkdaşlıq, regional əməkdaşlığın gücləndirilməsində yerli hökumətlərin rolu, üzv dövlətlərdə Ombudsman təsisatları, Elmi və texnoloji inkişafda parlamentlərin rolu və bir sıra digər mövzularda müzakirələr aparılacaq. Bununla yanaşı, komissiyada İnformasiya təhlükəsizliyi, Əqli mülkiyyət hüquqlarının müdafiəsi, Ticarət sirrinin rəqəmsal mühafizəsi, TÜRKPA-ya üzv dövlətlərdə ali təhsil diplomlarının qarşılıqlı tanınması, yaşayış icazəsinin asanlaşdırılması haqqında model qanun layihələrinin hazırlanması nəzərdə tutulub.

İclasda həmçinin TÜRKPA tərəfindən təqdim olunan medalların adlarının dəyişdirilməsi ilə bağlı məsələyə baxılıb.

Müzakirələr zamanı Milli Məclisin deputatları Məlahət İbrahimqızı və Cavanşir Feyziyev çıxış edərək komissiyanın gələcək fəaliyyəti barədə öz fikirlərini açıqlayıblar, təkliflərini səsləndiriblər.

Tədbirin sonunda Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının növbəti iclasının yeri, tarixi və gündəliyi müəyyən edilib. Növbəti iclasın 2023-ci il fevral ayında Türkiyədə keçirilməsi qərara alınıb.

***"Azərbaycan"***

# Azərbaycan-Türkmənistan diplomatik münasibətlərinin 30 illiyi münasibətilə tədbir və sərgi təşkil edilib

İyunun 9-da Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində (XİN) Azərbaycanla Türkmənistan arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə tədbir və sərgi keçirilib.



Nazirliyin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tədbirdə Azərbaycan XİN-in rəhbər heyəti, Türkmənistanın ölkəmizdəki səfirliyinin rəhbərliyi, əməkdaşları iştirak ediblər.

Tədbir hər iki ölkənin Dövlət himnlərinin səslənməsi ilə başlayıb.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Xələf Xələfov 30 il ərzində iki ölkənin böyük inkişaf yolu keçdiyini qeyd edib. Azərbaycan və Türkmənistan arasında ikitərəfli münasibətlərin, o cümlədən regional və beynəlxalq əməkdaşlığın dinamik şəkildə inkişaf etdiyini qeyd edən nazir müavini bu istiqamətdə iki dövlət arasında formalaşmış qarşılıqlı etimad və hörmətin əsas amil olduğunu bildirib. Azərbaycan və Türkmənistan arasında strateji tərəfdaşlıq xarakterli münasibətlərin mövcudluğunu məmnunluqla qeyd edən nazir müavini Xələf Xələfov iki ölkə arasında müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, ticarət və energetika sahələrində inkişafı təmin edən geniş beynəlxalq hüquqi bazanın əhəmiyyətini vurğulayıb. Nazir müavini Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə işlənməsinin iki ölkə arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin daha bir nümunəsi olduğunu ifadə edib.

Daha sonra çıxış edən Türkmənistanın ölkəmizdəki səfiri Mekan İşanquliyev Azərbaycan və Türkmənistanı tarixi, mədəni bağların, dəyərlərin birləşdirdiyini vurğulayıb. Hazırda Türkmənistan və Azərbaycan münasibətlərinin yeni məzmun kəsb etdiyini bildirən səfir bu münasibətlərin siyasi, iqtisadi, həmçinin mədəni və humanitar sahələrdə özünü göstərdiyini ifadə edib. Səfir iki ölkənin iştirakı ilə həyata keçirilən regional və beynəlxalq əhəmiyyətli irimiqyaslı layihələrin Türkmənistan və Azərbaycan əməkdaşlığının yüksək sürətlə inkişaf etdiyinin göstəricisi olduğunu diqqətə çatdırıb. İki qardaş ölkə arasında birgə layihələrin təşkilində növbəti yeni mərhələ olan Türkmənistan Hökuməti ilə Azərbaycan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında qarşılıqlı Anlaşma Memorandumunun imzalanmasını qeyd edən səfir Mekan İşanquliyev bunun xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

Tədbirin sonunda iştirakçılar Azərbaycan və Türkmənistan arasında diplomatik münasibətlərin 30 illiyinə həsr edilmiş sərgi ilə tanış olublar.

# Leyla Abdullayeva Rusiya xarici işlər nazirinin Fərrux kəndi ilə bağlı fikrinə münasibət bildirib

"Azərbaycan və Ermənistan tərəfindən təsis edilmiş delimitasiya komissiyalarının fəaliyyəti əvvəlcədən nəzərdə tutulduğu kimi məhz iki ölkənin dövlət sərhədinin delimitasiyası məqsədini güdür".

AZƏRTAC xəbər verir ki, bu sözləri Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Rusiya Federasiyasının xarici işlər nazirinin Ermənistana səfəri çərçivəsində keçirilən mətbuat konfransında Xocalı rayonunun Fərrux kəndi ilə əlaqəli vəziyyətin Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası kontekstində nəzərdən keçiriləcəyinə dair fikrini şərh edərkən söyləyib.

"Bu proses çərçivəsində Azərbaycan-Ermənistan dövlət sərhədindən kənar hər hansı bir məsələyə, o cümlədən Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərlə bağlı məsələyə baxılması nəzərdə tutulmur", - deyə L.Abdullayeva vurğulayıb.

# Azərbaycan Prezidentinin köməkçisi BMT Baş Assambleyasının sədri ilə görüşüb



Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici əlaqələr şöbəsinin müdiri Hikmət Hacıyev Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının sədri Abdulla Şahid ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın daim çoxtərəfli diplomatiyanı dəstəklədiyi vurğulanıb və Qoşulmama Hərəkatının sədri kimi bu istiqamətdə gördüyü işlər müzakirə edilib.

Xatırladaq ki, BMT-nin protokol qaydalarına əsasən, rəsmi görüşlərdə BMT-nin və bu təşkilatın rəhbər vəzifəli nümayəndəsinin təmsil etdiyi dövlətin bayraqları qoyulur.

# *ABŞ səfiri:* "Son 30 ildə Azərbaycanla bir çox sahədə mühüm işlər görmüşük"

"Azərbaycandakı vəzifəm bu yay bitir. Burada səfir olmaq çox xoşdur. Gələcəkdə də ölkələrimiz arasındakı əlaqələr etibarlı əllərdə olacaq".



AZƏRTAC xəbər verir ki, bu sözləri ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberger iyunun 9-da jurnalistlərlə keçirilən "dəyirmi masa"da söyləyib.

O, ABŞ-ın Cənubi Qafqazda suverenliyə dəstək göstərməyə hər zaman hazır olduğunu diqqətə çatdırıb.

"Son 30 ildə biz Azərbaycan ilə qanunun aliliyi, təhlükəsizlik, iqtisadiyyat və enerji sahələrində mühüm işlər görmüşük. ABŞ növbəti 30 ildə də sülhün təmin edilməsinə dəstək verəcək", - deyən diplomat, həmçinin Azərbaycanın terrorizmlə mübarizəsini təqdirəlayiq hesab edib.

O deyib: "Biz hazırda Avropa İttifaqının Azərbaycan və Ermənistan arasında vəziyyətin normallaşması proseslərində uğurlu olduğunu müşahidə edirik. ABŞ Avropa İttifaqının bu təşəbbüslərini dəstəkləyir. Liderlər, xarici işlər nazirləri və işçi qrupları səviyyəsində sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat yollarının açılması prosesləri barədə danışıqlar aparılır. Bütün bunlar regionun davamlı iqtisadi inkişafı üçün vacib məsələlərdir".

Səfir həmçinin qeyd edib ki, ABŞ Azərbaycanda və Cənubi Qafqazda dinc və firavan gələcəyin təmin edilməsini öz öhdəliyinə götürüb. ABŞ ikitərəfli əlaqələrin inkişaf etdirilməsi ilə regionda uzun, davamlı sülhün təmin olunmasına kömək göstərməyə hazırdır. Regionun bütün ölkələri arasında kommunikasiyaların açılması çox vacibdir.

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin ABŞ-a vacib səfərinin baş tutduğunu qeyd edən diplomat səfər zamanı Azərbaycanla Ermənistan arasında münasibətlərin yaxşılaşdırılmasında ABŞ-ın oynadığı rolun müzakirə olunduğunu da diqqətə çatdırıb.

"Amerika Birləşmiş Ştatları işğaldan azad olunmuş ərazilərdə Azərbaycana humanitar minatəmizləmə sahəsində dəstək göstərdiyini bəyan edib. Ümid edirəm ki, ABŞ Azərbaycana daha çox yardım edə biləcək. Çünki buna çox böyük ehtiyac var. Münaqişənin başa çatmasından bu günədək 200-ə yaxın azərbaycanlı minaların qurbanı olub. İşğaldan azad olunmuş ərazilər minalardan tamamilə təmizlənmədən köçkünlərin öz torpaqlarına qayıdış prosesinin şahidi ola bilməyəcəyik", - deyə Örl Litzenberger bildirib.

Diplomat işğaldan azad olunmuş ərazilərdə bir neçə ABŞ şirkətinin spesifik layihələrdə iştirak etdiyini vurğulayaraq deyib: "Amerika şirkətləri xüsusilə bərpaolunan enerji sahəsində dünyanın ən yaxşı texnologiyasına sahibdir. İşğaldan azad olunmuş ərazilərdə bərpaolunan enerji ən vacib enerji mənbəyi hesab edilir. Azərbaycan Prezidenti İlham Əliyev bu ərazilərdə külək, günəş və hidroenerji üçün potensialın olduğunu qeyd edib. Bizim bu sahədə ən keyfiyyətli və ən yaxşı qiymətlərlə texnologiya təqdim edən şirkətlərimiz var".

Rusiya və Ukrayna arasında gedən müharibəyə də toxunan ABŞ səfiri bunun Avropa üçün əlavə qaz resurslarının tapılmasına ehtiyac yaratdığını diqqətə çatdırıb: "ABŞ da daxil olmaqla müxtəlif ölkə rəsmilərinin iştirak etdiyi Bakı Enerji Forumunda biz Azərbaycan qazının Avropaya ixracının artırılması ilə bağlı müzakirələr apardıq".

# Azərbaycanın müdafiə nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Müdafiə Sənayesi Nazirliyinin təşkil etdiyi sərgini ziyarət edib







"Efes-2022" çoxmillətli təlimini izləmək üçün Türkiyədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Müdafiə Sənayesi Nazirliyinin təşkil etdiyi sərgini ziyarət edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sərgi əsnasında general-polkovnik Z.Həsənov Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Raza ilə görüşüb.

Səmimi görüşdə Azərbaycan ilə Pakistan arasında hərbi əməkdaşlıqdan məmnunluq ifadə olunub, gələcək perspektivlər müzakirə edilib.

Sonra qonaqlar burada sərgilənən hərbi təyinatlı müasir silah və döyüş texnikası nümunələri ilə tanış olublar.

# "Efes-2022" təlimlərinin İzmirdə keçirilən gecə mərhələsi uğurla başa çatıb







Türkiyədə keçirilən "Efes-2022" çoxmillətli hərbi təlimlərinin İzmir bölgəsində təşkil olunan "Yüksəksəviyyəli müşahidəçi günü"nə aid iyunun 8-də keçirilmiş gecə mərhələsi uğurla başa çatıb.

AZƏRTAC xəbər verir ki, Türkiyənin milli müdafiə naziri Hulusi Akar və onun dəvəti ilə qardaş ölkədə işgüzar səfərdə olan Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov, o cümlədən Türkiyənin ayrı-ayrı qoşun növlərinin komandanları, eləcə də Ankarada akkreditasiya olunan hərbi attaşelər təlimləri izləyiblər.

Bu təlimdə müəyyən edilən tapşırıqlar tam şəkildə icra edilib. Türkiyənin yerli və bu ölkədə akkreditasiya olunan xarici kütləvi informasiya vasitələrinin əməkdaşları təlimləri tam şəkildə lentə alıblar.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Yüksəksəviyyəli müşahidəçi günü"nün iyunun 9-da keçiriləcək son prosesində çıxışı nəzərdə tutulub.

# Naxçıvanda şəhid ailələrinə və qazilərə mənzillər və avtomobillər təqdim olunub



İyunun 9-da - Milli Qurtuluş Günü ərəfəsində Naxçıvanda 5 şəhid ailəsinə və qaziyə mənzillər, 6 qaziyə isə avtomobillər təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Heydər Əliyev Muzeyində bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək deyib: "Azərbaycan xalqının tarixində mühüm əhəmiyyətə malik olan əlamətdar gün - Milli Qurtuluş Günü ərəfəsində şəhid ailələrinə və müharibə iştirakçılarına mənzillər və avtomobillər təqdim olunur. Milli Qurtuluş Günü müstəqil dövlətçiliyimizin və ərazi bütövlüyümüzün təminatıdır. 1993-cü il iyunun 15-də Ümummilli Liderimiz Heydər Əliyevin xalqın tələbi ilə siyasi hakimiyyətə qayıdışı Azərbaycanı parçalanmaq və işğal təhlükəsindən xilas edərək sabitlik və inkişafa qovuşdurmuşdur. Milli Qurtuluşun bəhrəsi olaraq güclü Azərbaycan dövləti və onun qüdrətli ordusu yaradılmış, torpaqlarımız işğaldan azad olunmuş, tarixi Zəfər qazanılmışdır. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi, "1993-cü ildə ölkəmiz, demək olar ki, parçalanırdı, vətəndaş müharibəsi gedirdi və məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində biz bu ağır sınaqdan üzüağ çıxa bildik. Məhz bugünkü Zəfərin təməli, bax o vaxt qoyulmuşdur".

"Milli Qurtuluşdan başlanan yol xalqımızın rifahını yüksəltmiş, sosial islahatların əhatə dairəsi genişlənmişdir", - deyən Ali Məclisin Sədri bildirib ki, bu tədbirlər sırasında şəhid ailələrinə və müharibə iştirakçılarına göstərilən qayğı, onların sosial-məişət şəraitinin yaxşılaşdırılması xüsusi yer tutur. Təqdim olunan yeni mənzillər və avtomobillər də bu diqqətin daha bir ifadəsidir.

Ali Məclisin Sədri şəhidlərimizin əziz xatirəsinə ehtiramını bildirib, şəhid ailələrinə və qazilərə yeni mənzillərində rahat həyat arzulayıb, onları qarşıdan gələn Milli Qurtuluş Günü, eləcə də mənzillər və avtomobillərlə təmin olunmaları münasibətilə təbrik edib.

Sonra Ali Məclisin Sədri mənzillərin orderlərini və avtomobillərin açarlarını təqdim edib.

Şəhid Vüsal Yusifovun həyat yoldaşı Nahidə Lətifova, şəhid Elməddin Həsənovun atası Elşən Həsənov, qazilərdən Miryaqub Seyidov, Əli Bayramov və avtomobillə təmin olunan qazi Sahil Hacıbəyli yaradılan şəraitə görə şəhid ailələri və qazilər adından minnətdarlıq ediblər.

Avtomobillə təmin olunan qazi Hüseyn Həsənov deyib: "Muxtar respublikada ərazi bütövlüyümüzün qorunması zamanı şəhid olanların ailələrinə və sağlamlığını itirmiş şəxslərə hər zaman dövlət tərəfindən diqqət və qayğı göstərilir. Bütün bunlar insan amilinə verilən dəyərin ifadəsi və əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət siyasətinin davamıdır. Bu gün Ümummilli Liderin yolu muxtar respublikada uğurla davam etdirilir, Naxçıvan günü-gündən inkişaf edir, insanların rifahı daha da yaxşılaşır. Milli Qurtuluş Günü ərəfəsində şəhid ailələrinə və qazilərə mənzil və avtomobillərin verilməsi bizim üçün ikiqat bayramdır. Mən Heydər Əliyev adına Hərbi Liseyin məzunu, Vətən müharibəsi iştirakçısıyam. Göstərilən diqqət və qayğıya görə ailəm və döyüş yoldaşlarım adından minnətdarlığımı bildirirəm".

Sonda xatirə şəkli çəkdirilib, avtomobillərə baxış olub.

Şəhid ailələrinə və qazilərə verilən 2 və 3 otaqlı mənzillər Naxçıvan, Culfa və Ordubad şəhərlərində, Kəngərli rayonunun Qıvraq qəsəbəsindəki yeni yaşayış binalarında yerləşir. Tam təmir olunan mənzillərə mebel dəstləri qoyulub, lazımi məişət şəraiti yaradılıb.

# Azərbaycan Ordusunda döyüş atışlı intensiv taktiki təlimlər keçirilir









Müdafiə Nazirliyinin rəhbər heyətinin iştirakı ilə Azərbaycan Ordusunun ümumqoşun poliqonlarında müxtəlif qoşun növlərinin döyüş atışlı intensiv taktiki təlimləri keçirilir.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərin keçirilməsində əsas məqsəd bölmələrin döyüş qabiliyyətinin artırılması, şəxsi heyətin praktiki vərdişlərinin inkişaf etdirilməsi ilə peşəkarlıq səviyyəsinin daha da yüksəldilməsi, qoşunların idarəetmə orqanlarının qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsidir.

Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və Xüsusi Təyinatlı Qüvvələrin bölmələrinin cəlb edilməsi ilə keçirilən təlimlərin əsas xüsusiyyəti Vətən müharibəsi və digər müasir müharibələrin təcrübəsinə əsaslanan yeni taktiki hərəkətlərin yerinə yetirilməsi, o cümlədən şərti düşmənin uzaqdan aşkar olunması sisteminin geniş tətbiqi ilə onun daha effektiv məhv edilməsidir.



Təlimlərin gedişi barədə komandirlərin və qərargah zabitlərinin məruzələri dinlənilir, kəşfiyyat məlumatları əsasında düşmənin vəziyyəti və ərazinin xüsusiyyətləri öyrənilir, silahlanmaya yeni daxil edilən cihaz və vasitələrin tətbiqi ilə bölmələrin qarşılıqlı fəaliyyəti təşkil olunur.

Təlimlərin ssenarisinə əsasən, aşkarlanan şərti düşmən hədəfləri müxtəlif aviasiya vasitələri, motoatıcı, artilleriya və tank bölmələri tərəfindən qarşılıqlı əlaqədə məhv edilir.

## Birinci Qarabağ müharibəsi əlillərinə birdəfəlik ödəmələr proaktiv qaydada təyin olunaraq ödəniləcək



1991-1997-ci illərdə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar hərbi xidmətdə olarkən xəsarət alması nəticəsində əlilliyi müəyyən edilmiş şəxslərə və onlardan vəfat edənlərin vərəsələrinə birdəfəlik ödəmənin verilməsi üçün hazırlıq işləri artıq yekunlaşır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bu barədə müvafiq komissiyanın iclasında bildirilib.

Komissiyanın sədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev vurğulayıb ki, Prezident İlham Əliyevin 2021-ci il dekabrın 23-də imzaladığı fərmana əsasən icra olunacaq bu yeni sosial dəstək proqramı müharibə əlillərinin sosial müdafiəsinə daha bir qayğını ifadə edir. Komissiyanın təklifləri təqdim edilib və həmin təkliflər əsasında müvafiq qayda təsdiq edildikdən sonra ödənişlərə başlanılacaq.

Bildirilib ki, həmin birdəfəlik ödəmələr də elektron sistem üzərindən proaktiv təyin olunaraq, nağdsız qaydada müvafiq şəxslərin bank hesabına köçürüləcək.

Aidiyyəti qurumlar tərəfindən 1997-ci il avqustun 2-dək xəsarət alan hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının, onlardan sığorta ödənişi verilməsinə dair məhkəmə qərarı olan şəxslərin və artıq sığorta ödənişi verilmiş şəxslərin siyahıları əsasında hazırda dəqiqləşdirmələr aparılmaqla ödəniş ediləcək şəxslərin siyahısı müəyyənləşdirilir.

İclasda birdəfəlik ödəmənin verilməsi üçün aparılan hazırlıq işləri müzakirə olunub.

Xatırladaq ki, 1991-1997-ci illərdə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar hərbi xidmətdə olarkən xəsarət alması nəticəsində əlilliyi müəyyən edilmiş şəxslərə veriləcək birdəfəlik ödəmə I dərəcə əlilliyə görə 8800 manat, II dərəcə əlilliyə görə 6600 manat, III dərəcə əlilliyə görə 4400 manat təşkil edəcək.

Onlardan vəfat edən şəxslərin vərəsələrinə də həmin ödənişlər veriləcək.

## Hindistanın ölkəmizdəki səfiri Məhəmməd peyğəmbərlə bağlı qalmaqala görə Azərbaycan XİN-ə çağırılıb

İyunun 9-da Hindistanın ölkəmizdəki səfiri Bavitlung Vanlalvavna Azərbaycanın Xarici İşlər Nazirliyinə çağırılıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Hindistanın hakim partiyasının rəsmiləri tərəfindən islam dininə qarşı və Məhəmməd peyğəmbərlə bağlı təhqiramiz ifadələr işlədilməsinin qəbuledilməz olduğu deyilib.

Hindistan rəsmilərinin sərgilədiyi islamofob mövqeyin bütün dünya müsəlmanlarının hissiyyatına toxunduğu qeyd edilib və Azərbaycanın bu davranışı qınadığı Hindistan səfirinin diqqətinə çatdırılıb.

Bu kimi halların müxtəlif dinlərdən olan insanların sülh şəraitində birgə yaşayışına xələl gətirdiyi qeyd olunub. Sözügedən rəsmilərə qarşı Hindistan hökuməti tərəfindən sərt tədbirlərin görülməsinin gözlənildiyi ifadə edilib.

# Erməni vandallığı dünyada ifşa olunur



## Artıq beynəlxalq aləm də faşist xislətlilərin Azərbaycan torpaqlarında törətdikləri vəhşilikləri etiraf edir

İşğalçı Ermənistan 30 il ərzində Qarabağda və Şərqi Zəngəzurda mədəni irsimizin qəsdən məhv edilməsi, mənimsənilməsi, dəyişdirilməsi və oğurlanması kimi dəhşətli cinayət əməlləri törədib. İşğalçılar bu illər ərzində Azərbaycan torpaqlarındakı yer adlarımızı, toponimlərimizi dəyişdirib, uydurma adlar qoyub, tariximizə iddia edə bilmədikləri məqamlarda isə barbarlığa əl ataraq maddi-mədəni, dini abidələrimizi vəhşicəsinə dağıdıblar.

### "Torpaqlarımızı erməni faşizmi bu günə saldı"

"...Mən azad edilmiş bu bölgələrdə olarkən, ermənilər tərəfindən törədilmiş vəhşiliyi görərkən bir daha əmin oluram ki, biz nəinki özümüz üçün, bölgəmiz üçün böyük iş görmüşük. Biz erməni faşizminin başını əzdik. Bizim torpaqlarımızı erməni faşizmi bu günə saldı". 23 dekabr 2020-ci ildə Prezident İlham Əliyev işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olarkən erməni vandalları tərəfindən yerlə-yeksan edilən yaşayış binalarımızı, dağıdılan maddi-mənəvi irsimizi görərək səsləndirmişdi bu fikirləri.

İlham Əliyev bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırmışdı ki, bizim bütün dini abidələrimiz düşmən tərəfindən dağıdılıb: "Dünya 30 il ərzində buna səssiz qalıb. Biz bu məsələni dəfələrlə qaldırmışdıq, beynəlxalq kürsülərdən qaldırmışdıq, tarixi-dini abidələrimiz dağıdılıb, təhqir edilib. Biz o videoları dəfələrlə göstərirdik. Ağdam məscidini, Şuşa məscidlərini, o vaxt işğal altında olan digər məscidlərin vəziyyətini göstərərək deyirdik ki, mənfur düşmən bizim dini abidələrimizi dağıdıb, təhqir edib..."

Lakin erməni barbarlarının tarixi irsimizə qarşı törətdikləri vəhşiliklər faktlarla, dəlillərlə göstərilsə də, bir çox ölkələr, beynəlxalq təşkilatlar illər boyu bu cinayətləri görməzdən gəliblər və susqunluq nümayiş etdiriblər...

### İşğalçılar mədəni irsimizə də qənim kəsiliblər

Təkzibolunmaz reallıqdır ki, tarixən xalqımıza qarşı etnik təmizləmə həyata keçirən erməni faşistləri mədəni irsimizə də qənim kəsiliblər. Tarixi bir misal göstərək: XX əsrin əvvəllərində İrəvan quberniyası ərazisində 300 məscid qeydə alındığı halda, hazırda Ermənistan ərazisində - İrəvan şəhərində yalnız bir məscid - Göy məscid qismən salamat qalıb. Bu məscidin tamamilə dağılmaqdan qurtulmasının əsl səbəbi isə erməni məkrinin təzahürüdür, əslində beynəlxalq ictimaiyyətin gözündən pərdə asmaq niyyəti daşıyıbdır.

Erməni vandalları 30 il ərzində işğalda saxladıqları Qarabağ və ətraf ərazilərdə Azərbaycan xalqına qarşı mədəni soyqırımı törədiblər. 1990-cı illərin əvvəllərinə olan statistikaya əsasən, işğal edilmiş ərazilərimizdə 2625 abidə qeydə alınıb. Onlardan 11-i beynəlxalq əhəmiyyətli, 240-ı ölkə əhəmiyyətli, 455-i isə yerli əhəmiyyətli olmaqla, ümumilikdə 706-sı dövlət tərəfindən mühafizə edilib.

Ermənistanın işğalçılıq siyasəti nəticəsində yüzlərlə mədəniyyət müəssisəsi, o cümlədən 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalereyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, o cümlədən Füzuli rayonu ərazisində dünyanın ən qədim yaşayış məskənlərindən biri - Azıx mağarası, Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu dağıdılıb, vandalizmin qurbanına çevrilib.

İşğal dövründə əzəli torpaqlarımızdakı islam mədəniyyətinə aid olan bütün məscidlər, abidələr dağıdılıb. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub.

Erməni faşistlərinin özlərinə saxta tarix uydurmaq üçün həyata keçirdikləri əsas məkrli niyyətlərindən biri də Azərbaycan ərazilərindəki Qafqaz alban irsinə yiyələnmək olub. Bu səbəbdən də işğal altında qalan bütün alban məbədlərində özününküləşdirmə, tarixi faktların saxtalaşdırılması ilə məşğul olublar.

### Azərbaycan düşmənlərinə qarşı da hər zaman tolerantlıq nümayiş etdirib

Baxmayaraq ki, üç onillik ərzində işğalda qalan torpaqlarımızdakı bütün dini ocaqlar, məscidlər, məzarlıqlar erməni barbarları tərəfindən dağıdılıb, bu gün də Bakının mərkəzində ermənilərin dini məbədi, məzarlıqları qorunub saxlanılır, onlara qarşı heç bir hörmətsizlik edilmir. Dövlət tərəfindən bərpa edilərək mühafizə olunan Bakının mərkəzindəki erməni kilsəsində ədəbiyyat fondu saxlanılır. Bü günə qədər Azərbaycanın nəzarətində olan və ermənilər yaşayan kəndlərdə nə bir ev, bina, nə də hansısa abidə dağıdılıb.

İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad olunan torpaqlarımıza səfər edən beynəlxalq ictimaiyyətin nümayəndələri də bu ərazilərdə erməni vəhşiliyinin izlərini görüb dəhşətə gəlirlər, erməni vandallığını etiraf edirlər.

ABŞ Dövlət Departamentinin dünyada dini etiqad azadlığının vəziyyəti ilə bağlı 2021-ci il üçün illik hesabatında yer alan məlumatlar da buna daha bir nümunədir.

Ölkəmizdə multikulturalizmin və multikonfessional icmaların mövcud olmasını təsdiq edən hesabatda bildirilir ki, Azərbaycan Respublikasında Rus pravoslav kilsəsi, Gürcü pravoslav kilsəsi, Erməni apostol kilsəsi, Yeddinci günün adventistləri, Molokan kilsəsi, Roma katolik kilsəsi, yevangelistlər, baptistlər və Yehovanın şahidləri, yəhudilərin və bəhailərin sinaqoqları, məbədləri və digər dini evləri fəaliyyət göstərir.

### Ermənistanda dini dözümsüzlük şiddətlənir

Hesabatda o da vurğulanır ki, Ermənistanda dini zəmində nifrət halları mövcuddur. Belə ki, yəhudi icmasının üzvləri 2020-ci ilin payızında Vətən müharibəsi zamanı İsrailin Azərbaycana göstərdiyi dəstəyə görə antisemitizmin, o cümlədən Ermənistan ictimaiyyəti nümayəndələrinin mənfi çıxışlarının və yəhudilərə qarşı vandalizmin artdığını bildiriblər. Hesabatda Holokost və Soyqırımı Memorialının 2020-ci ilin müharibəsindən sonra üçüncü dəfə vandalizmə məruz qaldığı da qeyd olunur. Azlıqların dini nümayəndələri bildiriblər ki, Ermənistanda cəmiyyət və ailə təzyiqləri etnik ermənilər üçün erməni apostol dinindən başqa dinə etiqad etməyə əsas maneə olaraq qalır.

Ermənilərin Qarabağ və Şərqi Zəngəzurda Azərbaycanın tarixi-mədəni irsinə qarşı törətdikləri vandallıqlar, məscidlərin, qəbirlərin təhqir olunması ilə bağlı məlumatların yer aldığı hesabatda müəlliflərin istinad etdiyi sənədlərdən biri Avropa Şurası Parlament Assambleyasının qəbul etdiyi "Ermənistan və Azərbaycan arasında münaqişənin humanitar nəticələri. Dağlıq Qarabağ münaqişəsi" adlı qətnamədir. Hesabatda həmin qətnaməyə istinadən qeyd olunur ki, əvvəllər Ermənistanın dəstəklədiyi separatçıların nəzarətində olan və Azərbaycan tərəfindən azad edilən ərazilərdə vurulan zərərə və dağıntılara, "xüsusilə də Ağdam, Füzuli və digər ərazilərin demək olar ki, tamamilə dağıdılması və talan edilməsinə, habelə son 30 il ərzində mədəni irsin istismarına" görə Ermənistan məsuliyyət daşıyır.

Sənəddə göstərilib ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər etmiş diplomatların, vətəndaş cəmiyyəti nümayəndələrinin və jurnalistlərin sözlərinə görə, Ermənistanın nəzarəti altında olarkən bu ərazilərdə yüzlərlə abidə, o cümlədən regionun etnik azərbaycanlıların istifadə etdiyi məscidləri, ziyarətgahları talan edilib, vandalizmə, təhqirlərə məruz qalıb və ya tamamilə dağıdılıb.

### Azərbaycanlılara məxsus qəbirlər təhqir edilib

O da qeyd olunur ki, "REZA" kimi tanınan peşəkar dünyaşöhrətli fotojurnalist Rza Deqqəti Füzuli, Ağdam, Zəngilan, Kəlbəcər və Cəbrayıl rayonlarında onlarca azərbaycanlı qəbiristanlığının sistemli şəkildə dağıdılmasını lentə alaraq sənədləşdirib. Qəbirlər təhqir edilib, bəzi hallarda qəbirləri qarət etmək üçün çuxurlar qazılıb, digər yerlərdə isə ağır tikinti texnikasından istifadə edərək qəbirlərin dağıdılıb qarətgərlik edilməsinə dair sübutlar toplanıb. Bir çox qəbirlərin başdaşları dağıdılıb. Bundan əlavə, azərbaycanlıların cəsədlərinin qalıqları təhqir edilib, qızıl dişləri çıxarılıb, sümükləri isə ərazilərdə səpələnib və ya bəzi hallarda tamamilə dağıdılıb. Deqqətinin sözlərinə görə, erməni məzarları demək olar ki, toxunulmaz qalıb.

Azərbaycan ərazilərinin ermənilər tərəfindən minalanması məsələsinə də toxunulan hesabatda göstərilir ki, vətəndaş cəmiyyəti nümayəndələrinin, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının və Azərbaycan hökumətinin fikrincə, Azərbaycanın azad olunmuş ərazilərinin ermənilər tərəfindən geniş şəkildə minalanması şəhər və kəndlərdəki yüzlərlə dini obyektin böyük əksəriyyətinə girişi qeyri-mümkün edib və o abidələrə dəyən ziyanın həcmi illər boyu naməlum qala bilər.

### Erməni vəhşiliyinə bir neçə misal

Hesabat müəlliflərinin fikrincə, aşkar olunmuş və sənədləşdirilmiş ziyanı bir neçə misalla nümayiş etdirmək olar. Məsələn, Füzuli rayonundakı XIX əsrə aid olan Hacı Ələkbər məscidinin ermənilər tərəfindən dağıdılmasını, Ağdamdakı Cümə məscidinin üzərində erməni dilində qraffiti yazılmasını və mehrabının güllələnməsini qeyd etmək olar. Ağdam rayonundakı qəbiristanlıqlar, o cümlədən şəhərin Şəhidlər xiyabanı və İmarət Qərvənd qəbiristanlığının XVIII əsrə aid müqəddəs və tarixi məqbərələri təhqir olunub, talan edilib və ya dağıdılıb. Hesabatda qeyd olunur ki, Şəhidlər xiyabanını ziyarət edən Qərb diplomatları bir vaxtlar cəsədlərin basdırıldığı çuxurları gördüklərini və qəbiristanlıqda yalnız bir sınıq başdaşının qaldığını bildiriblər.

Göründüyü kimi, 44 günlük Vətən müharibəsi işğaldan azad edilən torpaqlarımızdakı erməni vəhşiliyini də gün üzünə çıxarıb. İndi beynəlxalq aləm faşist xislətli ermənilərin əsl simasını görür və etiraf edir.

Erməni reallıqlarını dünyaya qəbul etdirən əsas amil isə beynəlxalq ictimaiyyət nümayəndələrinin işğaldan azad edilən torpaqlara səfər edərək bu vəhşiliklərlə yerindəcə tanış olması, ən başlıcası isə Prezident İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi fəal diplomatik fəaliyyətdir. Bu yöndə sistemli şəkildə həyata keçirilən uğurlu siyasət sayəsində bəşəriyyət insanlıq və mədəniyyət düşməni olan erməni vəhşilərini tanıyır, illərdir Azərbaycan xalqının necə bir vandal, qaniçən, goreşən düşmənlə mübarizə apardığını görüb vəhşiliklərini anlayır...

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Ermənistanın Oxçuçay terroru davam edir



## Qafan və Qacaran kimi şəhərlərdən çaya axıdılan təmizlənməmiş məişət suları çirklənmə səviyyəsini daha da yüksəldib

30 illik işğal dövründə Ermənistan yalnız tarixi, mədəni abidələri, yaşayış məskənlərini dağıtmaqla kifayətlənməyib, hətta öz xislətini Qarabağın ətraf mühitinə, təbii sərvətlərinə külli miqdarda ziyan vurmaqla da göstərib. Bu dövrdə ərazilərin təbii sərvətləri işğalçı dövlətin himayədarlığı nəticəsində müxtəlif xarici şirkətlər tərəfindən qanunsuz istismara məruz qalıb. İllər ərzində Ermənistanın yürütdüyü ekoloji terror tarazlığın pozulmasına səbəb olub.

Terror nəticəsində meşələr məhv olmuş, çayların suyu yüksək səviyyədə çirklənməyə məruz qalmışdır. Transsərhəd çay olan Oxçuçay da Ermənistan ərazisində daim çirkləndirilib. Aparılan araşdırmalar zamanı Qafan və Qacaran dağ-mədən sənayesinin tullantı sularının təmizlənmədən birbaşa çaya axıdıldığı və çirklənmə səviyyəsinin normadan dəfələrlə artıq olduğu üçün Oxçuçayın su ehtiyatlarının istifadəsi yararsız hesab edilib. Oxçuçayın Azərbaycanın iki böyük çaylarından biri olan Araz çayına töküldüyünü nəzərə alsaq, onun hədsiz çirklənməsi bu çayın su ehtiyatlarının da keyfiyyətinə birbaşa təsir göstərir. Əkin sahələrinin suvarılmasında həlledici rol oynayan çayın suyunun çirklilik səviyyəsi, eyni zamanda bu sudan məişətdə istifadə olunması insan sağlamlığına birbaşa təsir edə, mənfi fəsadlara yol aça bilər. Bu çirklilik çayın fauna və florasını, ekosistemini də sıradan çıxarır, çaydakı canlıların məhvinə səbəb olur.

### Çayda nikelin miqdarı 5,5, dəmirin miqdarı isə 4,5 dəfə normadan artıqdır

Ərazilərimiz işğaldan azad olunduqdan sonra Qarabağın təbiətinin öyrənilməsi, təbii ehtiyatlarının müəyyənləşdirilməsi istiqamətində aidiyyəti qurumlar tərəfindən davamlı olaraq monitorinqlər həyata keçirilir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ötən il ərzində aparılan monitorinqlər zamanı Oxçuçaydan dəfələrlə götürülən su nümunələrində çirklənmənin yüksək səviyyədə olduğu təsdiqini tapıb. Belə ki, suda yüksək miqdarda ağır metal, xüsusən mis, molibden, manqan, dəmir, sink və xrom aşkar edilib. ETSN-in monitorinq hesabatlarına əsasən, çayda mis-molibden birləşməsinin miqdarı normadan iki, dəmir dörd və nikel yeddi dəfə yüksək olub, çayın rəngi çirklənmə səbəbindən vaxtaşırı dəyişib.

Oxçuçayın Zəngilanın Şayıflı və Cahangirbəyli kəndləri hissəsində aparılan monitorinqi zamanı "Qırmızı kitab"a daxil edilən 227 kiçik qızılxallı və 330 şirbit balıqlarının kütləvi ölümünün müşahidə edilməsi də çaydakı çirklənmənin yüksək səviyyədə olduğundan xəbər verir.

Bu il də ETSN-in Milli Hidrometeorologiya Xidməti tərəfindən Qarabağ çaylarında suların keyfiyyətini öyrənmək üçün monitorinqlər aparılıb və məlum olub ki, ən çox çirklənməyə məruz qalan Oxçuçaydır. Təhlillərə görə, çayda nikelin miqdarı 5,5, dəmirin miqdarı isə 4,5 dəfə normadan artıq olub.

May ayında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkil etdiyi ekspedisiya çərçivəsində AMEA-nın akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun əməkdaşları da Oxçuçay hövzəsində tədqiqat aparıblar. Oxçuçayın Azərbaycan ərazisindən keçən 43 kilometrlik hissəsinin 10 kilometri bilavasitə Ermənistanla Azərbaycan arasında hazırkı dövlət sərhədinə uyğun gəlir. Məlum olub ki, onun 32,2 faizi meşə-kolluqlar, 32,1 faizi kserofit bozqırlar, 12 faizi quru bozqırlar və 6,9 faizi isə çay-dərə çəmən meşələrdən ibarətdir. Süsən, Piləsər, Ağcaqayın və Əsgülüm silsilələrinin çaya baxan yamacları dik olub, əsasən tektonik qırılmaya uyğundur. Vulkanogen süxurlardan təşkil olunmuş yamacların bəzən çılpaq qayalıqlarla, bəzən meşə və meşə-kolluqlarla örtülməsinin səth axınının nizamlanmasında, yeraltı axının yaranmasında və çayda sululuğun ilboyu qorunmasında çox əhəmiyyətli rolu var. Qısa məsafədə təbii landşaftların quru-bozqırlardan dağ meşələrinə doğru tədricən dəyişməsi və onlar arasında ekoloji koridor rolu oynayan Oxçuçayın təsiri ilə hövzədə unikal əhəmiyyətə və zənginliyə malik biomüxtəliflik yaranıb.

### Çayda əl yumaq belə qorxuludur

Mütəxəssislər apardıqları tədqiqatların nəticəsində müəyyən ediblər ki, işğal dövründə çay hövzəsi ekosistemləri ciddi landşaft-ekoloji təsirlərə məruz qalıb. Meşələr vəhşicəsinə talan edilib, sənaye əhəmiyyətli Araz palıdı, qoz ağacları, göyrüş və s. qırılıb, digər ağac və kol növləri isə yanacaq kimi istifadə edilib.

Hazırda yaşıl görüntü yaradan bu meşəliklər əslində vaxtilə ermənilər tərəfindən qırılmış ağacların kökü üstündə inkişaf edən topaşəkilli pöhrələrdən ibarətdir. Tədqiqatlarda iştirak edən institutun Landşaftşünaslıq və landşaft planlaşdırılması şöbəsinin müdiri Mirnuh İsmayılov qəzetimizə bildirdi ki, Oxçuçayda çirklənmə səviyyəsi hələ də yüksəkdir: "Ermənistan ərazisində insanlar əllərinə keçən hər şeyi çaya atırlar. Zəngəzurun Ermənistan ərazisindəki hissəsində əhalinin ən çox məskunlaşdığı yerlərdən biri də Oxçuçay hövzəsidir. Dağ-mədən sənayesi, filiz saflaşdırma kombinatlarından axıdılan sulardan əlavə, Qacaran, Qafan kimi iri şəhərlərdən də məişət suları təmizlənmədən çaya axıdılır".

Alim çayboyu qarşılarına erməni dilində yazılmış çoxlu plastmas qabların çıxdığını qeyd edir. Bu isə bir daha sübut edir ki, tullantılar Ermənistan ərazisindən gəlir və buna başqa ad qoymaq mümkün deyil.

"Özümüz belə çayda əlimizi yumağa çəkinirdik" deyən M.İsmayılov vurğulayır ki, Oxçuçay ətrafında balıqların kütləvi ölümü sutkanın müəyyən vaxtında çirkli suyun daha çox buraxıldığı vaxtda baş verir. Onun sözlərinə görə, avqust ayında, çayın azsulu vaxtında yenidən tədqiqatlar aparılacaq, monitorinqlər mütəmadi davam edəcək.

### Konvensiyaya qoşulmayan Ermənistanın çirkin niyyəti

Oxçuçayın Ermənistan tərəfindən transsərhəd çirklənməsi ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyi, bir sıra qeyri-hökumət təşkilatları tərəfindən müxtəlif beynəlxalq qurumlara, nüfuzlu ekoloji təşkilatlara dəfələrlə müraciət edilib. Ermənistan bu zərərli təcrübəni dayandırmağa çağırılsa da, heç bir reaksiya verməyib. Ermənistan hələ də Transsərhəd Su Hövzlərinə dair Helsinki Konvensiyasına qoşulmamaqla öz çirkin niyyətini bir daha göstərir. Bütün çağırışlara baxmayaraq eyni niyyətləri ilə transsərhəd bir çayın bu dərəcədə çirklənməsinə şərait yaradırlar. Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi üzrə Helsinki Konvensiyası transsərhəd yeraltı sulardan istifadə edən tərəfdaş ölkələrin öhdəlikləri, transsərhəd yeraltı sulardan ədalətli istifadə, yerüstü və yeraltı sulardan kompleks istifadə, informasiya mübadiləsi, fəaliyyətlərin koordinasiyası və digər məsələləri tənzimləyir.

Ermənilər 2020-ci il 10 noyabr bəyanatı ilə Kəlbəcər, Laçın və Ağdamı boşaltmaq üçün Azərbaycanın humanist mövqeyi nəticəsində onlara verilən əlavə vaxtda belə ekoloji terroru davam etdirmiş, çıxdıqları evləri yandıraraq meşə ərazilərinə yayılmasına şərait yaratmış, eyni zamanda ağacları kəsmiş, yanğınlar törətmişlər. Bütün bunlar əsl erməni xislətinin göstəricisidir. Lakin inanırıq ki, Azərbaycanın beynəlxalq qurumlara verdiyi tutarlı faktlar, doğru məlumatları özündə əks etdirən şikayətləri əsasında tezliklə Ermənistana sərt və daha ağır cəzalar kəsiləcək. Müharibədə məğlub olaraq Azərbaycan qarşısında diz çökən Ermənistan etdiyi çirkinliklərə görə əlavə təzminat ödəməli olacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Alternativ enerjiyə alternativ yoxdur

## Azərbaycan bu sahədə də zamanla ayaqlaşmağı bacarır

Alternativ enerji mənbələrindən geniş istifadə olunması bu gün dünyanı düşündürən vacib məsələlərdəndir. Artıq hamı yaxşı dərk edir ki, bəşəriyyətin gələcəyinin aqibəti təbii resurslardan səmərəli istifadə etməkdən və mövcud olan sərvətlərin qorunmasından asılıdır. Bu baxımdan müasir dünyada alternativ enerjiyə alternativ yoxdur.

Hazırda "yaşıl" və alternativ enerji mənbələrindən istifadədə dünyanın 5 ölkəsi irəlidədir. Maraqlısı odur ki, bu 5 ölkədən yalnız biri Avropadadır. Qoca qitə alternativ enerji resurslarından istifadədə fəal mövqe tutsa da, təəccüb doğuran odur ki, bərpaolunan və ya alternativ enerji mənbələrindən Asiyada daha çox yararlanırlar. Başqa sözlə desək, beşliyə düşən ölkədən üçü Asiyadadır. Bu siyahıda Avropa lideri olan Almaniya hamıdan axırda - beşinci yerdədir, baxmayaraq ki, hər il alternativ enerji mənbələrinin inşasına 9 milyard avroya yaxın xərcləyir. Çətin kiminsə ağlına gəlsin ki, 4-cü yer Hindistana məxsusdur. 2010-cu ildən üzübəri bu ölkədə alternativ enerji mənbələrinə ayrılan investisiyaların məbləği 12 milyard avroya yaxınlaşır. 3-cü yerə Yaponiya sahib çıxır. Bu ölkə də alternativ enerji mənbələrinin inkişafına hər il 12 milyard avro ətrafında pul sərf edir. Onu da qeyd edək ki, Yaponiya hökuməti 2011-ci ildə "Fukisimo" AES-dəki qəzadan sonra alternativ enerji variantlarının həllinə start vermişdir. Birinci beşlikdə ABŞ eyniadlı qitədən ikinci yerə yüksələn yeganə ölkədir. Ekspertlər hesablayıblar ki, ABŞ alternativ enerji mənbələrinə ildə 35 milyard avro sərf etmişdir. Bu siyahıda birinci yeri hansı ölkənin tutduğunu ağlınıza belə gətirə bilməyəcəksiniz. Çünki dünyada "yaşıl" energetikanın inkişafında liderlik Çinə məxsusdur. Bu ölkə yalnız 2016-2021-ci illərdə alternativ enerji mənbələrinin bərpa edilməsinə 343 milyard avro xərcləmişdir.



Mütəxəssislərin rəyinə görə, Azərbaycan zəngin neft-qaz ehtiyatlarına malik olsa da, alternativ enerji mənbələrinin inkişafı onun üçün xüsusi əhəmiyyət kəsb edir. Yaxşı dərk edirik ki, nə bizim, nə də dünyanın karbohidrogen ehtiyatları sonsuzdur və bu sərvətlərin getdikcə tükənməsi göz qarşısındadır. Ekoloji fəlakətlərin və təbii fəlakətlərin artması bizi alternativ enerji mənbələrini inkişaf etdirməyə sövq edir. Alimlərin bir qismi və bəzi ekspertlər belə qənaətə gəlirlər ki, alternativ enerji ənənəvi enerji mənbələrini tam əvəz edə bilməyəcək. Amma alternativ enerji mənbələrinin yaradılması və saylarının artırılması zəruridir. Yaxşı haldır ki, Azərbaycanda bu istiqamətdə geniş imkanlar və ciddi perspektivlər mövcuddur. Yeri gəlmişkən qeyd edək ki, ölkəmizin iqtisadi cəhətdən əlverişli və texniki cəhətdən istifadəsi mümkün sayılan bərpaolunan enerji mənbələrinin potensialı 26940, o cümlədən külək enerjisi üzrə 3000, günəş enerjisi üzrə 23040, bioenerji potensialı 380, dağ çaylarının potensialı 520 MVt həcmindədir.

AMEA Fizika İnstitutunun mütəxəssisləri belə hesab edirlər ki, Azərbaycanın bir sıra bölgələrində həm günəşli, həm də küləkli günlərin sayının çox olması alternativ və bərpaolunan enerji mənbələrinin inkişafını stimullaşdıran amillərdir. Artıq Azərbaycanın Energetika Nazirliyi ilə "ACWA Power" və "Masdar" şirkətləri arasında bərpaolunan enerji üzrə ilkin pilot layihələrin reallaşdırılmasına dair icra müqavilələri imzalanmışdır. Həmin sənədlərə əsasən, ilkin layihələrə iki il müddətində 400 milyon dollar civarında sərmayə yatırılacaq.

"Total Energies" şirkətinin Azərbaycan üzrə icraçı direktoru Regis Agut "Bakı Enerji Həftəsi" çərçivəsində Şuşada keçirilən "Xalis sıfra aparan yol: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşıl enerji potensialının inkişafı" adlı xüsusi sessiyada bildirmişdir ki, Azərbaycanın alternativ enerji sahəsində böyük potensialı mövcuddur. Məlumat üçün bildirək ki, bu şirkət 26 ildən çoxdur enerji layihələrinin həyata keçirilməsində Azərbaycanla birgə çalışır.

Yerli mütəxəssislərimiz deyirlər ki, biz alternativ enerji mənbələrindən istifadə etməklə bir tərəfdən gücümüzü artıra, digər tərəfdən mövcud enerji ehtiyatlarına söykənərək Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verə bilərik. Bu baxımdan Bakı Enerji Forumu çərçivəsində Şuşa şəhərində 100-dən çox yerli və xarici nümayəndənin iştirakı ilə keçirilən sessiya və bir sıra sənədlərin imzalanması xüsusi əhəmiyyət kəsb edir. Adıçəkilən xüsusi sessiyada Azərbaycan və Türkiyənin enerji sahəsində də mükəmməl əməkdaşlığı gündəmə gəlmiş, Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonasına çevrilməsi istiqamətində Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətdən danışılmışdır. bp-nin regional prezidenti Qəri Counz çıxışında şirkətin təxminən 30 il ərzində Azərbaycanda neft-qaz sektorunda uğurla fəaliyyət göstərdiyini, Şuşada imzalanacaq sənədlərin "enerji keçidi" dövründə Azərbaycanın bərpaolunan enerji potensialının inkişafına töhfə verəcəyini bildirmişdir.

Maraqlı faktlardan biri də Azərbaycan Respublikasının Energetika Nazirliyi və bp arasında Cəbrayılda 240 MVt gücündə günəş elektrik stansiyası layihəsinin birgə həyata keçirilməsi ilə bağlı növbəti addımların atılması üçün 2021-ci ilin iyun ayında bağlanmış İcra Müqaviləsinə Əlavənin imzalanmasıdır. Bu sənəd "Şəfəq" adlı günəş-elektrik stansiyası layihəsinin reallaşdırılması istiqamətində birgə fəaliyyəti yekunlaşdırmaq üçün görüləcək tədbirləri əks etdirir. Əlavədə layihənin icrasında effektiv texniki və kommersiya həllinə nail olmaq üçün "Virtual enerji ötürülməsi mexanizmi" adlı biznes modelinin tətbiqi planlaşdırılmışdır.

Bundan əlavə, Energetika Nazirliyi və BƏƏ-nin "Masdar" şirkəti arasında "Azərbaycan Respublikasında quruda sənaye miqyaslı 1 QVt gücündə günəş və 1 QVt gücündə külək enerjisi layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı icra müqaviləsi" və "Dənizdə 2 QVt gücündə inteqrasiya edilmiş külək və yaşıl hidrogen layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı icra müqaviləsi" imzalanmışdır. Növbəti müqavilə SOCAR ilə bp arasında bağlanmışdır. SOCAR-ın birinci vitse-prezidenti Rövşən Nəcəf və bp-nin regional prezidenti Qəri Counzun imzaladıqları sənəd Azərbaycanda bərpaolunan enerji potensialının öyrənilməsini, bu sahədə əməkdaşlıq məsələlərini və birgə layihələrin həyata keçirilməsini nəzərdə tutur.

Göründüyü kimi, Azərbaycan sürətlə zamanın nəbzini tutaraq alternativ enerji növlərindən istifadəyə çox ciddi fikir verən, bu sahədə köklü islahatların aparılmasına vacib diqqət ayıran dövlətə çevrilir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## DMA 12 mindən çox şəhid ailəsi və qazini aktiv məşğulluq proqramlarına cəlb edib

44 günlük Vətən müharibəsindən sonra şəhid ailələrinin və müharibə iştirakçılarının aktiv məşğulluq proqramlarına cəlb edilməsi istiqamətində aparılan işlərə dair mətbuat konfransı keçirilib.

Dövlət Məşğulluq Agentliyinin (DMA) sədri Mustafa Abbasbəyli postmüharibə dövründə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələri və qazilərlə bağlı icra olunan sosial dəstək paketinin artıq 100 min şəxsi əhatə etdiyini, onlara 190 min xidmət göstərildiyini bildirib.

Qeyd olunub ki, o cümlədən Vətən müharibəsi şəhidlərinin ailə üzvləri və müharibə iştirakçılarının aktiv məşğulluq proqramlarına cəlb edilməsi işləri aparılır. Vətən müharibəsindən sonra Dövlət Məşğulluq Agentliyi tərəfindən 12,1 min şəhid ailəsi və qazi aktiv məşğulluq proqramlarına cəlb edilib. Onlardan 7,8 min nəfəri özünüməşğulluq proqramına cəlb olunaraq, onlar üçün kiçik ailə təsərrüfatları, kiçik biznes sahələri yaradılıb.

Nazirlik tərəfindən 2021-ci ildə başladılan, şəhid ailəsi üzvləri və Vətən müharibəsində yaralanmış qazilərin məşğulluğuna dəstək məqsədi daşıyan "Məşğulluq marafonu"na artıq 646 işəgötürən qoşularaq 4538 vakansiya təqdim edib və marafon çərçivəsində artıq 2366 şəxs işlə təmin olunub. Onlardan 1973 nəfəri qazi, qalanları şəhid ailəsi üzvləridir.

Vətən müharibəsi şəhidlərinin ailə üzvləri və müharibə iştirakçılarının əmək bazarının tələblərinə uyğun peşələrə yiyələnməsi də əsas hədəflərdən biridir. 2022-ci ilin 5 ayında peşə hazırlığına 1542 vətəndaş cəlb olunub ki, onlardan bir hissəsi də şəhid ailəsi üzvləri və Vətən müharibəsi iştirakçılarıdır.

## KOB sahəsində Pakistanla əməkdaşlıq genişlənəcək

İslamabad Ticarət və Sənaye Palatasının prezidenti Məhəmməd Şakil Munir və palatanın üzvləri Kiçik və Orta Biznesin İnkişafı Agentliyində (KOBİA) olublar.

Agentliyin İdarə Heyətinin sədri Orxan Məmmədov ilə keçirilmiş görüşdə birgə əməkdaşlığa, bu istiqamətdə hər iki qurumun ortaq səylərinə dair fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, KOB-ların dəstəklənməsi üzrə ən yaxşı təcrübənin öyrənilməsi və müvafiq qurumlarla əməkdaşlıq coğrafiyasının genişləndirilməsi KOBİA-nın başlıca fəaliyyət istiqamətlərindəndir. KOB sahəsində Pakistanla da əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur.

Həmçinin görüşdə bizneslər arasında əməkdaşlıq və birgə layihələrin icrası müzakirə edilib. Qarşılıqlı işgüzar missiyaların həyata keçirilməsinin biznes qurumları arasında əməkdaşlıq üçün faydalı ola biləcəyi diqqətə çatdırılıb.

Görüşdə Pakistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bilal Hayee və Pakistan-Azərbaycan İqtisadi Əməkdaşlıq Palatasının (PAKAZCHAM) prezidenti Xürrəm Bhatti iştirak ediblər.

## Bərdə-Ağdam avtomobil yolunun tikintisi davam edir

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra edilən yol infrastrukturu layihələrindən biri olan Bərdə-Ağdam avtomobil yolunun tikintisi sürətlə davam edir.

Başlanğıcını Bərdə şəhərindən götürən Bərdə-Ağdam avtomobil yolunun uzunluğu 44,5 kilometrdir. Avtomobil yolu 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilir.

Hazırda yolun 3-5-ci kilometrlik hissəsində torpaq işləri görülür. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yararsız qrunt qazılaraq çıxarılır, genişləndirmə işləri aparılır. Yolun 5-44,5-ci kilometrlik hissələrində torpaq işləri yekunlaşıb. Hazırda yol geyiminin tikintisi və asfalt-beton örtüyünün salınması işləri aparılır. Asfalt-beton örtük yolun 20 kilometrlik hissəsində (25-44-cü kilometrlik) döşənir.

Yeni inşa edilən yol boyunca suların ötürülməsini təmin etmək məqsədilə nəzərdə tutulan suötürücü boru, düzbucaqlı su keçidi, həmçinin zəruri olan yerlərdə yeraltı keçidlərin inşası da artıq sona çatıb. Hazırda layihə üzrə 3 yerdə nəzərdə tutulan yerüstü piyada keçidlərinin tikintisi üçün hazırlıq işləri aparılır.

Bundan başqa, yolun 25 və 40-cı kilometrlik hissəsindəki 2 körpünün inşası da artıq yekunlaşıb. Yolun 14-cü kilometrlik hissəsində 66 metr uzunluğa malik yol qovşağında isə yanaşma yollarının inşası aparılır. Həmçinin yolun 29-cu kilometrliyində "Pit stop" (Dayan Dincəl) məntəqəsinin tikintisi davam edir.

1-ci texniki dərəcəli avtomobil yolu boyunca hərəkətin təhlükəsizliyini təmin etmək üçün geriyə dönmə hissələrinin yaradılması, avtobus dayanacaqlarının inşası da layihə üzrə icrası nəzərdə tutulan işlərdəndir.

Qeyd edək ki, Bərdə-Ağdam avtomobil yolu işğaldan azad edilmiş Ağdam şəhərinə qədər inşa edilir. Avtomobil yolunun ilk 14 kilometrlik hissəsi Bərdə şəhəri və rayonun bir neçə yaşayış məntəqəsinin daxilindən keçir. Ümumilikdə isə yol Bərdə və Ağdam şəhərləri də daxil olmaqla, sözügedən rayonların 20-dən çox yaşayış məntəqəsini əhatə edir.



◆ **Dünyanın neft-qaz regionlarında**

## Özbəkistan neftçiləri: "Azərbaycanlı həmkarlarımızla qürur duyuruq"

Özbəkistandan söz düşəndə ilk növbədə göz önünə geniş pambıq tarlaları gəlir. Lakin bu ölkənin iqtisadiyyatında pambıqçılıqla yanaşı, sənayenin və kənd təsərrüfatının bir sıra digər sahələri də önəm daşıyır. Neft-qaz sektorunun isə xüsusi yeri var.



İndiyədək Özbəkistanın ərazisində onlarca neft və qaz yatağı aşkar olunub. Bu yataqların arasında onilliklərdir istismar edilənlər də, təzə kəşf olunanlar da var. Yataqların bəziləri ölkənin öz mütəxəssisləri tərəfindən, bəziləri xarici şirkətlərlə birgə işlənir. Respublikada eləcə də neftin və qazın emalı ilə məşğul olan müəssisələrin geniş şəbəkəsi fəaliyyət göstərir.

Odur ki, "Özbəkneftqaz" Səhmdar Cəmiyyəti genişmiqyaslı iş aparır. Onun fəaliyyətinə karbohidrogenlərin hasilatı, emalı və satışı daxildir. Cəmiyyət eləcə də təbii qazın nəqli - idxalı və ixracını həyata keçirir. Qazın saxlanması və əhaliyə çatdırılması da "Özbəkneftqaz"ın üzərinə düşür. Bu, dinamik inkişaf edərək ölkənin sosial-iqtisadi inkişafına əhəmiyyətli töhfə verən müasir şirkətdir. "Özbəkneftqaz" respublikanın büdcəsinə ən çox vergi ödəyən şirkətlər arasında ikinci yerdədir.

Ölkədə "2017-2021-ci illərdə karbohidrogen xammalının hasilatının artırılması üzrə Proqram" uğurla yerinə yetirilib. Proqram perspektivli sahə və yataqlarda quyuların qazılması və obyektlərin tikilməsi, eləcə də onların müasir texnologiyalarla təchiz edilməsi hesabına hasilatın sabit saxlanılması və artırılması məqsədi daşıyırdı.

Özbəkistanın neft yataqları əsasən Qaraqalpaq Muxtar Respublikasının, eləcə də Əndican, Buxara, Qaşqadərya, Nəmənqan, Surxandərya və Fərqanə vilayətlərinin ərazisində yerləşir. Hasilatın əsas hissəsi ölkənin cənub-qərb regionlarındakı yataqlardan əldə olunur. Digər rayonlardakı neft hasilatı obyektləri həcmcə kiçikdir və quyuların debiti də böyük deyil.

"Əndican" neft yatağı Fərqanə vadisinin şərq hissəsində yerləşir. "Əndican" 1937-ci ildə istismara daxil olub və vaxtilə Fərqanədə ən böyük neft yatağı sayılıb. Sözügedən vadinin şərq hissəsində "Boston" adlı daha bir yataq yerləşir. Yaxınlıqdakı "İzbaskənd" yatağı da Fərqanə vadisinin neftlə zəngin ərazi olduğunu təsdiqləyir.

Özbəkistan əsasən qaz yataqları ilə tanınır. "Qazlı" adından göründüyü kimi, ən zəngin mavi yanacaq mənbələrindən biridir. Burada az miqdarda neft və kondensat ehtiyatları da mövcuddur. Yatağın neftli-qazlı ərazisi 460 kvadrat kilometrə çatır.

"Qazlı" çoxdan kəşf edilsə də, keçən əsrin 60-cı illərinin əvvəllərindən istismar olunur. Yataqdan çıxarılan qaz ölkədən xaricə də ixrac edilir. Neft isə Özbəkistanın öz daxili ehtiyaclarına sərf olunur.

Özbəkistanın daha bir zəngin qaz-kondensat yatağı Buxara vilayətinin qərb hissəsində yerləşir. Bu, 1980-ci ildə kəşf edilən "Qandım" yatağıdır. Yataq Buxara-Xivə neftli-qazlı rayonuna aiddir. Bu yatağın işlənməsi "Qandım-Xayzak-Şadı" neft layihəsi çərçivəsində həyata keçirilib. Əməliyyatçı kimi Rusiyanın "LUKOYL" şirkəti çıxış edib.

2010-cu ilin mart ayında kəşf olunmuş "Təvəkkəl" ölkənin gənc yataqlarındandır. Özbəkistanın daha neçə-neçə neft-qaz yatağının adını çəkmək mümkündür.

Bu ilin əvvəlində isə Amerika Birləşmiş Ştatlarının "Epsilon Development Company" (EDC) şirkəti Özbəkistanın cənubundakı Qaşqadərya rayonunda yeni qaz-kondensat yatağı kəşf edib. Qeyd olunur ki, yatağın ehtiyatları 4 milyard kubmetr qaz və 64 min ton qaz kondensatı səviyyəsində qiymətləndirilir. Yaxın vaxtlarda quyudan 168 millimetr diametrli qaz xətti çəkiləcək, hasil edilən qaz əhalinin ehtiyaclarına yönəldiləcək.

2019-cu ilin əvvəlindən Özbəkistanda fəaliyyət göstərən EDC şirkəti çətin bərpa olunan karbohidrogen ehtiyatlarının hasilatı üzrə ixtisaslaşıb. Şirkət 2019-2023-cü illər arasında ölkəyə 5,2 milyard dollar sərmayə qoymağı planlaşdırır.

Qeyd edək ki, hazırda EDC Özbəkistanın "Mübarək", "Kultak-Kamaşi", "Surxan", "Qərbi Fərqanə" və "Üstyurd" investisiya neft-qaz bloklarının işlənməsi ilə məşğuldur.

Özbəkistanın neft-qaz emalı sahəsinə gəldikdə isə Şurtan, Mübarək, Üstyurd, Buxaradakı qaz-kimya komplekslərini, qaz emalı zavodlarını misal göstərmək olar. Bunlar böyük layihə gücü olan müəssisələrdir. Təkcə Mübarək şəhərindəki qaz emalı zavodunun 3 min, Üstyurd qaz-kimya kompleksinin 1500 işçisi var.

Özbəkistanın neft-qaz sənayesinin mütəxəssisləri azərbaycanlı həmkarlarına böyük hörmətlə yanaşır, onların bu sahədəki təcrübəsini yüksək qiymətləndirirlər. "Özbəknetqaz"ın Azərbaycanda keçirilməsi artıq ənənə halını almış Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində dəfələrlə iştirak etməsi bunu bir daha təsdiqləyir. Özbəkistanın sözügedən şirkəti bu yaxınlarda öz işini tamamlamış "Bakı Enerji Həftəsi"nin, o cümlədən 27-ci Xəzər Neft-Qaz Sərgisinin də fəal iştirakçısı idi. Burada özbək mütəxəssisləri Azərbaycanın və bir sıra digər ölkələrin neft-qaz işçiləri ilə sıx təmasda oldular, işgüzar söhbətlər apararaq gələcək uğurlu əməkdaşlığın, tərəfdaşlığın konturlarını müəyyənləşdirdilər.

"Özbəkneftqaz" Səhmdar Cəmiyyətinin Biznesin perspektiv inkişafı departamentinin aparıcı mütəxəssisi Əlyor Abdulacanov onunla birlikdə Bakıya gələn nümayəndə heyətinin fikrini ifadə edərək dedi: "Bu, sərgidə ilk iştirakımız deyil. Biz bu tədbirə SOCAR-ın tərəfdaşı kimi gəlirik. Bizim azərbaycanlı həmkarlarımızla birgə işlərimiz var. Burada eyni zamanda digər mövcud və potensial tərəfdaşlarımızla görüşürük. Sərgiyə gəldikdə isə onu deyə bilərik ki, tədbir həmişə olduğu kimi, yenə də yüksək səviyyədə təşkil edilib. Biz hələ də Prezident İlham Əliyevin sərgiyə gəlişinin xoş təsiri altındayıq. Digər sərgilərdə də olmuşuq, ancaq belə yüksək səviyyədə sərgi və təşkilatçılıq görməmişik".

***Flora SADIQLI,***
***"Azərbaycan"***




# Dünyanın diqqəti yenidən Bakıdadır



## Bu gündən paytaxtımızda "Formula-1" yarışlarına start verilir

**Yüz milyonlarla tamaşaçı auditoriyasına malik olan "Formula-1" yarışlarının həyəcanı növbəti dəfə Azərbaycanda yaşanır. Bu gündən Bakıda yarışmanın Azərbaycan Qran-prisinə start verilir. Ona görə dünyada avtomobil idmanına maraq göstərən hər kəsin diqqəti paytaxtımıza yönəlib. 3 gün davam edəcək turnirdə Sebastian Fettel, Lyuis Hemilton, Valtteri Bottas, Fernando Alonso kimi məşhur pilotlar mübarizə aparacaqlar.**

### Dünyanın təqdir etdiyi mükəmməl evsahibliyi

Azərbaycan artıq uzun illərdir dünyada beynəlxalq siyasi, iqtisadi və humanitar tədbirlərin keçirildiyi məkan kimi tanınır. Eyni zamanda respublikamız indiyədək mötəbər beynəlxalq idman tədbirlərinə də evsahibliyi edib. Birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, çoxsaylı Avropa və dünya çempionatları Azərbaycanı həm də dünyada idman ölkəsi kimi tanıdıb. Bu yarışların hər birində respublikamızın yüksək təşkilatçılığı, nümunəvi evsahibliyi qlobal idman aləmi tərəfindən təqdir edilib, örnək kimi dəyərləndirilib.

Təbii ki, bütün bunlar Azərbaycanın inkişafının və yüksəlişinin təcəssümüdür. Aydındır ki, adi bir idman yarışını təşkil etmək üçün dünya standartlarına cavab verən idman infrastrukturuna malik olmaq lazımdır. O cümlədən həm xarici idmançıları beynəlxalq standartlar çərçivəsində qarşılamaq lazımdır, həm də yarışı izləmək üçün birdənbirə ölkəyə gələn çoxsaylı xarici qonağın yerləşə bilməsi üçün müəyyən infrastruktur olmalıdır. Təqdirəlayiqdir ki, Azərbaycan bütün bunların hamısına malikdir. Prezident İlham Əliyevin mütərəqqi inkişaf siyasəti bütün sahələrlə yanaşı, idman sferasında da Azərbaycanda nəinki standart, həm də olduqca mükəmməl müasir infrastrukturun yaradılmasına yol açıb. Bunun nəticəsi olaraq Bakıda yaradılan möhtəşəm infrastruktur bu yarışların hər birini ən mükəmməl şəkildə təşkil etməyə imkan verib. Birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları artıq təsdiq edib ki, Azərbaycan ən kütləvi və ən böyük idman yarışlarına evsahibliyi etməyə, ölkəyə gələcək on minlərlə turisti qarşılamağa hazırdır.

### "Formula-1" artıq Azərbaycan üçün yenilik sayılmır

"Formula-1" sıradan bir yarış deyil, dairəvi və sürətli avtoyürüş üzrə dünya çempionatıdır. Hər il keçirilən bu yarışın müxtəlif şəhərlərdə Qran-pri mərhələləri təşkil olunur. Bu mərhələlərdə toplanan xallara əsasən pilotlar və komandalar ilin sonunda çempionluq titulu qazanırlar. Bolid adlandırılan müasir "Formula-1" avtomobilləri bir sıra özəllikləri ilə fərqlənir. Onlar tək adamlıq olur, üstəlik sürücü yeri və təkərləri açıqdadır. Komandalar avtomobilləri özləri istehsal etsələr də, hər biri tanınmış avtomobil markalarının motorlarını, yağını və ya istehsal etdiyi digər detalları istifadə edirlər.

Mübarizə aparan iştirakçıların sayı digər idman tədbirlərindən az olsa da, bu avtomobil yarışı tamaşaçı sayına görə yalnız futbol üzrə dünya çempionatından və Olimpiya oyunlarından geri qalır. Hesablamalara görə, "Formula-1"in dünyadakı auditoriyası təxminən 500 milyon nəfərdir. Elə ölkəmizdə də bu avtomobil yarışmasına maraq göstərənlərin sayı olduqca çoxdur.

Bakı artıq altıncı dəfədir ki, "Formula-1" yarışlarına evsahibliyi edir. Bu baxımdan "Formula-1" Azərbaycan üçün yenilik sayılmır. Bakı bir neçə ildir ki, dünyanın sürət paytaxtıdır. Unikal xüsusiyyətlərə malik olan Bakı Şəhər Halqası İçərişəhərin qala divarları ətrafında enişli-yoxuşlu dar keçidləri, sahilboyu müasir göydələnləri, Xəzər dənizinə möcüzəvi mənzərənin açıldığı geniş sürət zolağını özündə birləşdirən və bütövlükdə Bakının ecazkar simasını, keçmişi ilə bugününü canlandıran unikal bir trekdir. Ona görə bu yarışda bütün dünya hər dəfə paytaxtımızın gözəlliyinin şahidi olur. Paytaxtımızın düz mərkəzində gözəllik, sürət və həyəcan bir araya gələrək "Formula-1" yarışının mahiyyətini tam simvolizə edir.

### Azərbaycan Qran-prisi mövsümün ən maraqlı tədbirlərindən olacaq

"Formula-1" həm də ölkəmizin dünyada tanıdılması, turizm potensialının təbliği deməkdir. Azərbaycana gələn xarici turistlərin sayında son illərdə əhəmiyyətli dərəcədə artımın baş verməsində məhz bu kimi tədbirlər mühüm rol oynayır. Xatırladaq ki, ötən il "Formula-1" yarışları pandemiya səbəbindən tamaşaçısız keçirilmişdi. Bu il isə trekin müxtəlif yerlərində tribunalar quraşdırılıb və yarışları izləmək istəyən əcnəbi tamaşaçılar Bakıya təşrif buyurublar.

Bəli, dünyanın avtomobil idmanı azarkeşlərinin diqqəti yenə Azərbaycana yönəlib. Şübhə yoxdur ki, Azərbaycan Qran-prisi ötən illərdə olduğu kimi, bu dəfə də "Formula-1" mövsümünün ən maraqlı tədbirlərindən olacaq. Avtomobil idmanı həvəskarları Bakıda bir daha Azərbaycanın nümunəvi evsahibliyinə və möhtəşəm yarışa şahidlik edəcəklər.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

## "Formula-1" gündəliyi

### Pit zolağında gəzinti



"Formula-1"in ən maraqlı hissələrindən sayılan Pit zolağı gəzintisi baş tutub. Gəzinti Azərbaycan Qran-prisi çərçivəsində saat 12:00-dan 13:30-dək davam edib.

Yarışın azarkeşləri komandalar, onların qarajları ilə yaxından tanış olmaq, dünyaşöhrətli pilotlarla rəsm çəkdirmək imkanı əldə ediblər. Pit zolağı gəzintisində yalnız üçgünlük bileti olan tamaşaçılar iştirak edə biləcəklər.

### Pyer Qaslinin əhvali-ruhiyyəsi yüksəkdir



"Formula-1"də çıxış edən "AlphaTauri" komandasının pilotu Pyer Qasli Azərbaycan Qran-prisi barədə danışarkən deyib ki, tras ləng döngələrdən ibarət olduğu üçün, adətən, sürətlə bağlı problemlər yaşayırlar. Onun fikrincə, trek maşına potensial olaraq uyğundur: "Lakin uzun düz yolu da unutmamalıyıq. Görək onun öhdəsindən necə gələcəyik. Ümumilikdə optimist əhvali-ruhiyyədəyəm".

26 yaşlı pilot ötənilki yarışda qənaətbəxş çıxış edərək, təsnifat mərhələsində 3-cü, əsas yarışda isə 4-cü yeri tutduğunu xatırladıb. O, komanda yoldaşı Yuki Tsunodanın da 7-ci yeri tutmaqla, xallar topladığını vurğulayıb. Bildirib ki, Bakıya ötənilki nəticəni təkrarlamaq üçün qayıdıblar: "Təsnifat mərhələsində Tsunodanın məni ötüb keçməsi komandaya yardım edə bilər. Amma unutmamalıyıq ki, söhbət Monakodakına bənzər cizgilərə malik dolama şəhər trasından gedir".

Tsunodanın Bakıdakı yarış ərazisində bəyənmədiyi sahələr yoxdur. Xüsusən ikinci sektor xoşuna gəlir: "Orada tarixi tikililərin yanından keçirlər. Eyni zamanda bu trasda təkcə düz uzun yerlər yox, ötmələr üçün hissələr də var. Ümidvaram ki, həftə sonunu təmiz keçirəcək və xallar qazanacağıq. Komandaya yaxşı nəticə lazımdır".

### Pilotların Azərbaycan ruhu



"Formula-1" Azərbaycan Qran-prisi ərəfəsində "Setanta Sports" telekanalı sosial şəbəkələrdə çox maraqlı bir poster paylaşıb. Paylaşımda Bakının İçərişəhəri fonunda üç "Formula-1" çempionu təsvir edilib və onların hər biri azərbaycanlı obrazındadır.

Sebastian Vettelin başında papaq, Lyuis Hemiltonun əynindəki pencəyin döşündə 7 orden və Fernando Alonsonun əlində qayka açarı. Onlar armudu stəkandan pürrəngi çay içərək nərd oynayırlar.

### Çempionun yenidən qələbə arzusu



"Formula-1" üzrə son dünya çempionu, "Redd Bull"da çıxış edən niderlandlı pilot Maks Ferstappen Azərbaycan Qran-prisi barədə danışarkən bildirib ki, Bakıya qayıdışını səbirsizliklə gözləyib. Ötən il burada tamamlamadığı yarışı bu il qələbəylə sonlandıracaq. Pilotun fikrincə, Bakının ciddi əyləcləmə yerləri və kiçik uçuş zonalarına malik çətin şəhər treki var. Əvvəllər sürətli dövrədə bir qədər geri qalsalar da, bu il vəziyyətin fərqli olacağına inanır.

Ferstappenin komanda yoldaşı, ötən il Bakıdakı yarışın qalibi olan Serxio Peres bu il titul uğrunda mübarizənin çox gərgin keçdiyini və bundan sonra daha diqqətli olacaqlarını bildirib: "Ötən il Bakıda "Red Bull"la ilk qələbəmi qazandım. Küçə treklərini xoşlayıram. Burada çox şey pilotun bacarığından asılıdır. Cinahdan hücum edəndə səhvə yol vermək asandır. Lakin yalnız orada yaxşı nəticə üçün 10 nəfəri keçmək olar".

### Stüardlar da yarışı gözləyirlər



"Formula-1"in sabiq pilotu Mika Salo Beynəlxalq Avtomobil Federasiyası tərəfindən Azərbaycan Qran-prisinin üçüncü stüardı roluna dəvət edilib. Yarışda baş verəcək mübahisəli anları onunla bərabər FIA-nın Ümumdünya Şurasının üzvü Qari Konelli və FIA-nın stüardı Matteo Perini araşdıracaqlar.

Bu il Derek Uorik Bəhreyn və Monakoya, Enrike Bernoldi Səudiyyə Ərəbistanına və Avstraliyaya, Mika Salo İmolaya, Denni Sallivan Mayamiyə və Vitantonio Luitsi İspaniyaya stüard qismində dəvət alıblar.

### "Aston Martin"inin hədəfi birinci olmaqdır



"Formula-1"in Azərbaycan Qran-prisi ərəfəsində "Aston Martin" komandasının pilotları Sebastian Fettel və Lens Stroll qarşıdakı həftəsonu ilə bağlı gözləntilərindən danışıblar.

Sebastian Fettel Bakıya geri dönməyin çox xoş olduğunu söyləyib. O, ötən il "Aston Martin"inin heyətində ilk podiumunu qazanıb, elə ona görə də bu mərhələ onun üçün xüsusi önəm daşıyır. Pilotu maraqlandıran və həyəcanlandıran əsas məqam isə yeni nəsil bolidlərin sürətli düz yoldan və asta dar döngələrdən ibarət olan bu trasda öz məharətlərini necə sərgiləmələridir.

Öz növbəsində Lens Strol da deyib ki, komandanın uğurlarına baxmayaraq, Bakıda ötənilki yürüş onun üçün çətin idi, lakin bu trasa yenidən çıxmağa hazırdır. Sürətli düz yol və asta dar döngələrin birləşməsi maşınların sazlamalarında kompromis axtarmağa məcbur edir. Lakin yeni reqlament şəraitində bütün bunların necə keçəcəyinə baxmaq maraqlıdır.

### Ən sərt tormozlama nöqtəsi



İtaliyanın "Brembo" şirkəti Bakı trasında ən ciddi tormozlama nöqtəsi barədə video dərc edib. Videodan aydın olur ki, birinci döngədən əvvəl pilotlar yolun 137 metrlik hissəsində 2,5 saniyə ərzində sürəti saatda 344 kilometrdən 109 kilometrə endirərək, sərbəstdüşmə təcilinin 4,4 misli qədər gərginlik hiss edəcəklər.

Bu halda tormozlama gücü 2428 kilovat, əyləcin pedalına düşən maksimal güc isə 136 kiloqram olacaq.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***





# Pilotlar yarışa, bolidlər trekə hazırdır

## Azərbaycan Qran-prisində maksimal sürətin qeydə alınacağı gözlənilir

**Bakı daha bir möhtəşəm tədbirə - "Formula-1" Azərbaycan Qran-prisinə evsahibliyi edir. Sürətsevərlər planetin ən güclü 10 komandası və 20 pilotun əzmkar mübarizəsinin şahidi olacaqlar. Yarışın keçiriləcəyi Bakı Şəhər Halqası bəzi xüsusiyyətlərinə görə digər "Formula-1" treklərindən seçilir.**

Şəhərin müasirliyi ilə tarixiliyini özündə birləşdirən Bakı Şəhər Halqası şəhər trekidir və digər ölkələrlə müqayisədə burada maksimal sürətin qeydə alınacağı gözlənilir. Pilotların yarışacağı avtomobillər - bolidlər də tam hazır vəziyyətdədir. Pilotların yarışacaqları trekdən qalib ayrılması üçün bütün güclərini səfərbər edəcəkləri şübhəsizdir.

Digər Qran-prilərdə olduğu kimi, paytaxtımızda yarışacaq komandalar da reqlamentə əsasən bu gün hər biri 1,5 saat davam edəcək iki sərbəst yürüşdə trasla tanış olacaq, maşınları yarışa hazır vəziyyətə gətirəcəklər. Şənbə günü səhər sürücülər bir saatlıq məşq keçəcəklər. Adətən, nahardan sonra sıralanma turu və ya təsnifat mərhələsi təşkil olunur. Bu turun yekun nəticəsinə görə, sürücülərin bazar günü keçiriləcək yarışda start düzümü formalaşır.

İyunun 12-si isə Qran-prinin yarış günüdür. Sürücülər bir gün əvvəlki sıralanma turunun nəticələrinə görə startda yerlərini tuturlar. Əvvəlcə sürücülər trasda bir dövrə vuraraq təkərləri və əyləcləri qızdırırlar, dövrənin tamamında isə yenidən start yerlərinə qayıdırlar. Yarışın direktoru Çarli Uaytinqin xüsusi işarəsindən, yəni 5 qırmızı işığın sönməsindən sonra yarış başlayır. Dövrənin uzunluğundan asılı olaraq sürücülər müxtəlif traslarda müxtəlif sayda dövrələr vururlar.

Xatırladaq ki, 5 il öncə "Formula-1" yarışlarının reqlamentində bir sıra dəyişikliklər edilib. Belə ki, əvvəlki illərlə müqayisədə maşınların eni artırılıb. Maşınların maksimum eni təkərsiz 2000 mm-ə, korpusun eni isə 1600 mm-ə çatdırılıb. Maşının hündürlüyü əvvəlki kimi saxlanılıb (950 mm). Amma bolidin arxa oxundan sonra nəzarət müstəvisindən 800 mm yüksəkdə heç nə yerləşdirilə bilməz. Ona görə də arxa qanadın hündürlüyü 150 mm aşağı salınıb, eni isə 950 mm-ə çatdırılıb. Ön qanadın eni artırılaraq 1800 mm olub.

Yanacaqsız maşının minimal çəkisi də artırılaraq 728 kiloqram edilib. Çəki paylanmasında da dəyişikliklər olunub. Ön 328 kq, arxa isə 387 kq müəyyənləşdirilib. Maşınların çənində 100 deyil, 105 kq yanacaq olacaq ki, bu da havaya qarşı müqavimətin artması nəticəsində yanacaq sərfiyyatının artması ilə bağlıdır. Əyləc disklərinin qalınlığı 28 mm-dən 32 mm-dək artırılıb. Təkərlər isə nəzərəçarpacaq dərəcədə enləndirilib. Ön təkərlərin eni 305 mm-dək, arxa təkərlərin eni isə 405 mm-dək böyüdülüb. Disklə birlikdə dolu təkərin eni 385 mm-dən, arxa təkərin eni isə 470 mm-dən artıq ola bilməz. Təkərin tam diametri sliklərdə 670 mm-i, yağış təkərlərində isə 680 mm-i aşa bilməz.



Beləliklə, Odlar ölkəsində sürət festivalı başlayır. Yarışın sonunu Çarli Uaytinq və ya xüsusi dəvət olunmuş qonaq damalı bayraqla bildirir. Damalı bayraq görmüş sürücü üçün yarış başa çatmış sayılır. Əvvəlcə qalib gəlmiş sürücünün və onun komandasının şərəfinə təmsil etdikləri ölkələrin himnləri səslənir, kuboklar verilir və şampan mərasimi keçirilir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

Azercell

# abunəçilərinin nəzərinə

13 iyul 2022-ci il tarixdən etibarən fakturasız (SimSim) və fakturalı xətt sisteminə aid nömrələr üçün nəzərdə tutulan "Buraxılmış zəng" xidmətində 0,10 AZN aylıq abunə haqqı tətbiq ediləcək. Xidmətdən imtina etmək üçün STOP yazıb 6080-ə göndərmək və ya telefonda *608*0#YES yığmaq kifayətdir.

Qeyd: Abunəçilər göstərilən dəyişikliklər, xidmətdən istifadə şərtləri, sifarişi və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən **(www.azercell.com)**, həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.


# "Azərişıq" ASC ölkənin bütün regionlarında yenidənqurma işlərini davam etdirir

"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, ASC tərəfindən həyata keçirilən investisiya layihəsi çərçivəsində Şəkinin Aşağı Göynük və Aşağı Daşağıl kəndlərinin elektrik şəbəkəsi yenidən qurulub.

Yenidənqurma işləri nəticəsində 363 abonenti olan Aşağı Göynük kəndində 14 ədəd Komplekt Transformator Məntəqəsi quraşdırılıb. 33 km-a yaxın 10 kV-luq, 28 km-dan çox 0,4 kV-luq elektrik xətti yenilənib.

Şəkinin Aşağı Daşağıl kəndində də yenilənmə işləri yekunlaşdırılıb. 142 abonenti olan kənd ərazisində 4 ədəd Komplekt Transformator Məntəqəsi quraşdırılıb. 11 km-dan çox 10 kV-luq, 9 km-dan artıq 0,4 kV-luq elektrik xətti dəyişdirilib.

Hər iki kənddə elektrik sayğacları yenisi ilə əvəz olunub.

Şəkinin Aşağı Göynük və Aşağı Daşağıl kəndləri ilə yanaşı, rayonun Baş Zəyzid və Şirinbulaq kəndlərində də yenidənqurma işləri başa çatdırılıb. Ümumilikdə 1800-ə yaxın abonent keyfiyyətli, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin edilib. Xatırladaq ki, investisiya layihəsi bütün regionlarda 100-dən çox kəndi əhatə edir.


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

***qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC
## *açıq tender elan edir*

LOT - 1. "Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində Mərkəzi Nəbatat Bağı"nın abadlaşdırılması işlərinin satın alınması

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

**Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev ünvanında yerləşən "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC-dən (əlaqələndirici şəxs: Əhməd Məmmədov, tel: 496-52-05) ala bilərlər:**

**İşlərin qısa təsviri:**

"Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində Mərkəzi Nəbatat Bağı"nın abadlaşdırılması işlərinin görülməsi

Tenderdə iştirak haqqı: **3000,00 (üç min) AZN**
**Hh: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWİFT: IBAZAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tender iştirakçıları tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 95 bank günü ərzində qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi ölkə, rekvizitləri;
- malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar;
- malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;
- iddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış;
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış;
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış;
- mühasibat balansları, mənfəət və zərər haqqında hesabat;
- satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (son üç il (01 yanvar 2019-cu il - 30 may 2022-ci il) ərzində ümumi məbləği 10 milyon AZN-dən az olmayan, oxşar parkın əsaslı təmiri işini əhatə edən (oxşarlıq layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) ən azı bir sifarişi baş podratçı kimi qənaətbəxş şəkildə icra etməsi haqda məlumat və təsdiqedici sənədlər (müqavilə, işlərin təhvil aktları təqdim edilməklə) son üç il (01 yanvar 2019-cu il - 30 may 2022-ci il) ərzində ən azı 5 milyon AZN dövriyyə tələb olunur. Tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV 1-ci və 2-ci bəndində tələb olunan sənədlər hər bir şirkət üçün ayrılıqda təqdim edilməlidir;
- podratçının son 3 (üç) il (2019-2021) ərzində təhvil verdiyi parkın ümumi sahəsi azı 100 000 (yüz min) m2 təşkil etməlidir (Qeyd: parkın ərazisində tamet işləri, mərmər işləri, ən azı 1 müasir standartlara cavab verən fəvvarə və ya göl tikintisində təcrübəsi olan) və digər məlumatları özündə əks etdirən təsdiqedici sənədlər təqdim edilməlidir;
- iddiaçının avadanlığı və texnikası barədə məlumatlar;
- tələb olunan işçi heyəti 1) Yol mühəndisi - minimum 2 il təcrübəsi olmalıdır. 2) Geodez-Topoqraf - minimum 5 il təcrübəsi olmalıdır. 3) Təhlükəsizlik mühəndisi (SƏTƏM) - minimum 2 il təcrübəsi olmalıdır. 4) İş icraçısı - minimum 2 il təcrübəsi olmalıdır. 5) Mühəndis-mexanik - minimum 2 il təcrübəsi olmalıdır. 6) Mühəndis elektrik - minimum 2 il təcrübə olmalıdır. 7) İxtisaslı botanik.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

Tender iştirakçıları tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 20.07.2022-ci il saat 11:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 28.07.2022-ci il saat 17:00-a qədər **Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev, 17** ünvanında yerləşən "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC-yə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. Tender iştirakçılarının təklifləri **Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev, 17** ünvanında yerləşən "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC-də 29.07.2022-ci il saat 11:00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

# Fransada tətillər yenidən başlandı

## Bu dəfə aviatorlar "Şarl de Qoll" hava limanının fəaliyyətini iflic ediblər




Fransanın paytaxtı Paris şəhərindəki "Şarl de Qoll" hava limanında planlaşdırılan reyslərin təxminən dörddəbiri maaşların artırılmasını tələb edən hava limanı işçilərinin tətili səbəbindən ləğv edilib.

"Le Figaro" qəzeti yazır ki, Mülki Aviasiya Baş Müdirliyi (DGAC) aviasiya şirkətlərindən səhər saat 7:00-dan 14:00-a qədər uçuşları azaltmağı xahiş edib. Buna səbəb Avropanın bir neçə hava limanının son vaxtlar işçi çatışmazlığı ilə əlaqədar səyahətçilərə xidmət göstərməkdə böyük çətinliklərlə üzləşməsidir.

### "Əməkhaqqımızdan başqa hər şeyin qiyməti artıb"

Hava limanındakı bir neçə həmkarlar ittifaqı birləşərək bütün işçiləri şərtsiz, hər kəs üçün 300 avro artım tələb etmək məqsədilə səfərbər olmağa çağırıb. Onların müraciətində deyilir ki, "səyahətlərin və gəlirlərin bərpasına baxmayaraq, işimiz ədalətli dəyərlə ödənilmir. Əməkhaqqımızdan başqa hər şeyin qiyməti artıb".

Həmkarlar ittifaqlarının qiymətləndirməsinə görə, COVID-19 pandemiyası səbəbindən aviasiya sektoru iki il ərzində 15 min iş yerini itirib. Bu isə qalan işçilərə təzyiqin artmasına rəvac verib.

Xatırladaq ki, bu, həftə ərzində Avropada aviareyslərin ikinci böyük ləğvidir. Belə ki, bazar ertəsi günü minlərlə insan Böyük Britaniya hava limanlarında işçi çatışmazlığı səbəbindən çətinliklərlə üzləşiblər.

### Fransada tətillər adi hala çevrilib

Fransanın "France Info" telekanalı "Paris Hava Limanları" (ADP) operator şirkətinə istinadən xəbər verir ki, iyunun 9-u səhər saatlarında Parisin "Şarl de Qoll" hava limanında demək olar ki, hər dördüncü reys təxirə salınıb. Səhər saat 07:00-dan saat 14:00-a kimi "Ruassi" - "Şarl de Qoll" habında uçuşların 25 faizi ləğv edilib. Uçuşlar inflyasiyanı kompensasiya etmək üçün əməkhaqlarına 300 avro artım tələb edən hava limanı işçilərinin tətili səbəbindən ləğv olunub. Tətil edənlər arasında uçuş-enmə zolaqlarının təhlükəsizliyinin təmin olunmasında iştirak edən yanğınsöndürənlər də var.

Xatırladaq ki, ötən il iyulun ilk günlərində də "Ruassi" - "Şarl de Qoll" hava limanında tətillər olmuşdu.

Ümumilikdə son vaxtlar Fransada tətillər ənənəvi hal alıb. Məsələn, bu il iyunun 2-də energetika və qaz işçilərinin ümummilli tətili səbəbindən ölkənin 200 min sakini işıqsız qalıb, onlar da maaşların artırılmasını tələb ediblər.

Həmin gün ölkə diplomatları da tətilə başlayıblar. Onlar Xarici İşlər Nazirliyində (XİN) aparılan islahatlara etiraz ediblər. İslahatlar nəticəsində Fransada XİN işçilərinin sayı iki dəfə azaldılmalıdır.

Bu ilin əvvəlində həmçinin Parisdə nəqliyyat işçiləri maaşların artırılması tələbi ilə tətil təşkil etməyə nail olublar. Nəticədə fevralın 18-də Paris metrosu həmin aksiyaya görə işləməyib.

Bu siyahıda "sarı jiletlilər"in mütəmadi tətilləri və qalmaqallı etiraz aksiyaları da xüsusi yer tutur.

Aviasiya işçilərinin tətillərinə gəldikdə isə, son illər ərzində İtaliya, İsveç, Böyük Britaniya, Hindistan, Danimarka, Norveç, Polşa, Finlandiya və digər ölkələrdə bu cür hallar baş verib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# B İ L D İ R İ Ş

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (Agentlik) tərəfindən koronavirus infeksiyası ilə mübarizə tədbirləri çərçivəsində tam avtomat Roshe Cobas 6800 avadanlığı üçün PZR test dəstlərinin və onlara uyğun sərfiyyat mallarının satın alınması məqsədilə açıq tender metodu tətbiq edilməklə keçirilmiş satınalma prosedurunun qalibi "Labservis LTD" Məhdud Məsuliyyətli Cəmiyyəti müəyyən edilmişdir.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə "Labservis LTD" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 01.06.2022-ci il tarixində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# "Yelo Bank" ASC-nin səhmdarlarının nəzərinə

Diqqətinizə çatdırmaq istəyirik ki, 25 iyul 2022-ci il saat 11:00-da Bakı şəhəri, AZ1122, Həsən bəy Zərdabi küçəsi, 81k ünvanında yerləşən "Yelo Bank" ASC-nin baş ofisində səhmdarların növbədənkənar Ümumi Yığıncağı keçiriləcəkdir. Yığıncaqda aşağıdakı məsələlərin müzakirəsi nəzərdə tutulmuşdur:

1. Bankın kənar auditor tərəfindən təsdiqlənmiş və Audit Komitəsi tərəfindən tövsiyə edilmiş 2021-ci ilin yekunları üzrə illik maliyyə hesabatının təsdiqi;
2. Yığıncağın gündəliyində duran digər məsələlər.

Yığıncaqda iştirak etmək üçün şəxsiyyət vəsiqəsi və müvafiq səlahiyyət təsdiqedici sənədləri təqdim etməyiniz xahiş olunur.

Gündəlikdə duran məsələlər üzrə materiallar elektron poçt vasitəsilə göndəriləcəkdir.

***"YeloBank" ASC-nin Müşahidə Şurası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Raqif Məmmədli dostu

**ƏLİ BABAYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Bakı Mühəndislik Universitetinin rəhbərliyi və kollektivi ali təhsil ocağının Xarici dillər kafedrasının müdiri, dosent Ətrabə Gülə anası

**QƏMƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti



**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**



**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5968**
**Sifariş 1578**
**Qiymәti 40 qəpik**